Günəş Şərqdən doğur!

❐ № 52 (5333), 2021-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az

20 mart 2021-ci il (şənbə)

"Şərq" qəzeti milli bayramlarımızdan olan Novruz bayramı münasibəti ilə Azərbaycan xalqını təbrik edir. Bu bahar bayramı - yeni ilin başlanğıcı millətimizə xoş əhval ruhiyə, əmin-amanlıq və uğur gətirsin.

Süfrəniz ruzi- bərəkətli, sağlamlığınız möhkəm, arzularınız gerçək olsun!

Günün içindən...

Üçtərəfli bəyanatların icrasına köklənmək lazımdır

Revanşist və təhlükəli fikirlərlə əhalini zəhərləmək Ermənistana yaxşı heç nə vəd etmir

"Azərbaycan Respublikasının Prezidentinin Azərbaycan ərazilərinə səfərlər etməsi Ermənistan Xarici İşlər Nazirliyinin şərh mövzusu ola bilməz".

(səh.2)

Ermənistan əhalisinin 70 faizi atəşkəsin qorunmasına tərəfdardır



Rəyi soruşulanların 79 faizi hesab edir ki, Qarabağdan köçən ermənilər Ermənistanda evlə və işlə təmin edilməlidir

(səh.4)

Bayramda üzlər güldü

Operativ Qərargah ciddi sərtləşməyə getmədi

Martın 19-da Nazirlər Kabineti yanında Operativ Qərargah brifinq keçirib. Brifinqdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Adminstrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov vurğulayıb ki, artıq bir ildən çoxdur ki, bütün dünya COVİD-19 pandemiyasını yaşayır...

(səh.3)

Bu dəfə əsgərlər cücə-plov yeyəcək

Səmayə nənə bütün hazırlıqlarını görüb

(səh.9)

✓ Nazir biganə qalmadı

Şagirdi döyən müəllim əmrlə işdən çıxarıldı

(səh.8)

✓ Daha 15 erməni hərbçinin meyiti Ermənistana təhvil verilib

Meyitlərin qalıqları Füzuli rayonu ərazisində tapılıb

(səh.9)

✓ Jurnalist xərçəngə tutuldu

Həkimlər Səbinə Əvəzqızının müalicə ilə sağala biləcəyini bildiriblər

(səh.6)

✓ Daha 879 nəfər koronavirusa yoluxub

334 nəfər müalicə olunaraq sağalıb, 11 nəfər vəfat edib

(səh.9)

Ərdoğan Bakıya qonaq kimi gəlmir

İndiki şəraitdə bölgədə koordinasiyalı davranış şərtdir

Türkiyənin Kənd təsərrüfatı və Meşəçilik naziri Bəkir Pakdəmirli Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfəri zamanı Prezident Rəcəb Tayyib Ərdoğanın yaxın zamanlarda Azərbaycana gələcəyini deyib.

O, həmçinin işğaldan azad olunmuş bölgələrdə aqrar sahənin inkişafı üçün Türkiyənin bütün istiqamətlərdə Azərbaycana dəstək verəcəyini, Azərbaycanın bütün istəklərini Türkiyənin yerinə yetirəcəyini qeyd edib. Əlbəttə, bu, iki qardaş arasındakı dostluğun növbəti təzahürüdür.

Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, keçmiş millət vəkili Fərəc Quliyev "Şərq"ə açıqlamasında səfərin əhəmiyyətini yüksək qiymətləndirdi: "Türkiyənin xarici siyasətində Azərbaycanın xüsusi yeri var. Prezident Ərdoğan başda olmaqla müxtəlif rəsmi şəxslər ayrı-ayrı görüşlərdə Qarabağ məsələsini həmişə qabardırlar.

Rəsmi Ankara müharibə dövründə daim bizə diplomatik dəstək verdi.

Ümumiyyətlə, Türkiyənin xarici siyasətində Azərbaycanın müstəsna yer tutmasının birinci səbəbi bizim qardaş dövlətlər olmağımızdırsa, ikincisi, regiondakı ortaq maraqlardır.

Bu ortaq maraqları təmin etməkdən ötrü də koordinasiyalı davranış şərtdir.

Əlbəttə, Ərdoğan Azərbaycana qonaq kimi gəlmir. Bura həm də onun evidir. Amma səfərin çox ciddi siyasi əhəmiyyəti var".

Kənan

Üçtərəfli bəyanatların icrasına köklənmək lazımdır

Revanşist və təhlükəli fikirlərlə əhalini zəhərləmək Ermənistana yaxşı heç nə vəd etmir

"Azərbaycan Respublikasının Prezidentinin Azərbaycan ərazilərinə səfərlər etməsi Ermənistan Xarici İşlər Nazirliyinin şərh mövzusu ola bilməz".

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib.

"Ermənistan XİN-i mövcud olmayan dağıntılar barədə danışmadan öncə, 30 ilə yaxın müddətdə Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən həyata keçirilən tarixi, mədəni və dini irsin talan edilməsi və "təmizləmə" siyasəti, o cümlədən yüzlərlə abidələrin yerlə yeksan edilməsi, 63 məscidin tamamilə yer üzündən silinməsini unutmamalıdır.

Ermənistan tərəfi hələ də anlamır ki, bu kimi ritorikadan uzaqlaşmaq və imzalanmış üçtərəfli bəyanatların icrasına köklənmək lazımdır. Revanşist və təhlükəli fikirlərlə öz əhalisini zəhərləmək Ermənistana yaxşı heç nə vəd etmir", - Nazirliyin Mətbuat xidmətinin məlumatında deyilir.

"Qonaqpərvərliyi heç vaxt unutmayacağam"

ABŞ səfiri Novruz Bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli Səfiri Li Litzenberqer Novruz Bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.

Səfir bu barədə videomüraciətində bildirib.

Təbrikdə deyilir:

"ABŞ-ın Azərbaycandakı səfirliyi və ABŞ xalqı adından Azərbaycan xalqına sağlam və xoşbəxt Novruz diləyirəm.

2019-cu ilin mart ayında bütün ölkənin Novruz tətilinə hazırlaşdığı bir dönəmdə mənə Azərbaycana gəlmək qismət oldu. Ölkəyə gəldiyimdə əsl bayram əhval-ruhiyyəsi ilə qarşılaşdım. Şənliyə hazırlaşmış ailələr, göz qamaşdıran rənglər, hər yerdə, həmçinin, səfirlikdə qalanmış tonqallar və dünyada daddığım ən dadlı yeməklərlə tanış oldum.

Bu mənim üçün Azərbaycan mədəniyyəti və cəmiyyətinə həqiqətən xüsusi bir giriş idi. Bakıda olduğum ilk ay ərzində mənə göstərilən qonaqpərvərliyi heç vaxt unutmayacağam. Novruz dünyada yüz milyonlarla insan üçün ailələrin və icmaların bir araya gələrək yeni ilə başlamalarını qeyd etdikləri bir bayramdır. ABŞ-da son zamanlarda Azərbaycandan və bölgədəki digər ölkələrdən gələn immiqrantlar sayəsində Novruz bayramı müxtəlifliyi ilə seçilən mədəni təqvimimizə xoş bir əlavə olub.

COVİD-19 bayramları genişmiqyaslı qeyd etməyi çətinləşdirsə də, səmimi qəlbdən ümid edirəm ki, hamınız təhlükəsiz və sağlam bir bayram keçirəcəksiniz. Və gələn il hamımız bayramı birlikdə qeyd edəcəyik".

"Nə vaxtsa danışacağıq"

ABŞ prezidenti Putinin təklifinə saymazyana yanaşır

ABŞ Prezidenti Co Bayden Rusiya Prezidenti Vladimir Putinin açıq müzakirə aparmaq təklifinə cavab verib.

APA RİA Novosti-yə istinadən xəbər verir ki, ABŞ lideri bu barədə jurnalistlərə açıqlamasında bildirib.

"Əminəm ki, nə vaxtsa danışacağıq", deyə Bayden vurğulayıb.

Bayramda yüzlərlə insan azadlığa çıxdı

Prezidentin sonuncu əfv sərəncamı müxtəlif siyasi qütblərdə və sosial şəbəkələrdə müsbət qarşılanıb

Prezident İlham Əliyev tərəfindən əfv sərəncamlarının imzalanması artıq ənənə halını alıb. Ölkə rəhbərinin martın 18-də imzaladığı növbəti sərəncama əsasən 475 nəfər azadlığa buraxılıb. 98 məhbusun cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb.

Ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş 3 nəfərin cəzası 25 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilib. Əfv Sərəncamı ümumilikdə 625 nəfərə şamil edilib ki, bu da təkcə Azərbaycan sərhədləri çərçivəsində deyil, daha geniş miqyasda gerçəkləşən, müasir dövrün ən böyük humanizm aksiyalarından biri sayıla bilər. Sərəncamın imzalanması Prezidentin həyata keçirdiyi siyasətin mərkəzində məhz vətəndaş amilinin dayandığının göstəricisidir. Dövlət başçısı müxtəlif qanun pozuntularına yol verdiklərinə görə azadlıqdan məhrum edilən insanları əfv etməklə onların ailələrinə böyük sevinc yaşadıb.

Prezidentin sonuncu əfv sərəncamı müxtəlif siyasi qütblərdə və sosial şəbəkələrdə müsbət qarşılanıb. Sosial şəbəkələrdə ictimai fəallar, siyasətçilər, media rəhbərləri ölkə rəhbərinin sərəncamını alqışlayıblar.

Millət vəkili, YAP İdarə Heyətinin üzvü Cavid Osmanov bildirib ki, növbəti əfv sərəncamı dövlət başçısının humanizm siyasətinin, vətəndaş amilinin hər zaman öndə dayanmasının növbəti təzahürüdür. Deputatın sözlərinə görə, amnistiya təşəbbüsləri xalqımız tərəfindən hər zaman yüksək qiymətləndirilib: "Burada diqqət çəkən məqamlardan biri də odur ki, siyasi mənsubiyyətindən asılı olmayaraq məhkum olan şəxslər də əfv edilib. Sərəncam xalqımız tərəfindən birmənalı olaraq yüksək qiymətləndirilir. Ümumilikdə müstəqillik dövründə Azərbaycanda 67 əfv Sərəncamı imzalanıb, 11 amnistiya aktı qəbul edilib. Əminik ki, əfv olunan şəxslər dövlət başçısının bu humanist addımından düzgün nəticə çıxaracaqlar".

Politoloq Şəbnəm Həsənova da deyib ki, ölkə başçısı hər zaman ali humanistlik, qayğıkeşlik nümunəsi göstərərək əfv sərəncamları imzalayır: "Bu sərəncam Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu humanizm siyasətinin İlham Əliyev tərəfindən uğurla davam etdirildiyinin növbəti bariz nümunəsidir. Qərar bayram günlərində neçə-neçə insana azadlıq, ailələrə sevinc bəxş etdi. Bu addım İlham Əliyev tərəfindən atılmış humanist addım olmaqla yanaşı, eyni zamanda dövlət siyasətinin əsasını insan amilinin təşkil etdiyi faktını yenidən sübut etdi. Sonuncu əfv sərəncamı Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilmişdi. Bu cür addımlar həm ölkə başçısı, həm də Mehriban xanım Əliyevanın öz fəaliyyətlərində humanizm prinsiplərini hər zaman prioritet tutmalarının növbəti bariz nümunəsidir".

İsmayıl

Bayramda üzlər güldü

Operativ Qərargah ciddi sərtləşməyə getmədi

Martın 19-da Nazirlər Kabineti yanında Operativ Qərargah brifinq keçirib. Brifinqdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Adminstrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov vurğulayıb ki, artıq bir ildən çoxdur ki, bütün dünya COVİD-19 pandemiyasını yaşayır:

Ancaq yoluxma sayı artarsa məhdudiyyətlərə getmək məcburiyyətində qalacağıq

"Pandemiya bütün ölkələrə dalğavari təsir edib. Bu dalğalar müxtəlif ölkələrdə müxtəlif vaxtlarda baş verib. Bir çox ölkələr hazırda qapanmalara gedir. Qapanmalar dalğanın sürətini azaldır və ölkələrə imkan yaradır ki, səhiyyə sisteminin dayanıqlılığını yarada bilsin. Yumşalmalar yoluxmaların sayının artmasına səbəb olub. Gündəlik yoluxmalar ümumi testlərin sayında payını artırır. Say artdıqca ölənlərin sayı da artır. Azərbaycan da yumşalmalara getmişdi. Yumşalmalar ölkədə yoluxma sayının artmasına səbəb olub. Bu, gözlənilən idi".

Yaşı 40-dan yuxarı olan şəxslərin vaksinasiyasına başlanılacaq

Şahmar Mövsümov diqqətə çatdırıb ki, martın 22-dən Azərbaycanda yaşı 40-dan yuxarı olan şəxslərin koronavirusa qarşı vaksinasiyasına başlanılacaq: "Azərbaycanda indiyədək 500 mindən çox vaksin vurulub. Bugünədək 50 yaş olan insanların vaksinasiyası həyata keçirilirdi. Növbəti həftənin 1-ci günündən başlayaraq yaşı 40-ın üzərində olan vətəndaşlarımız vaksinasiya prosesinə cəlb olunacaq. İri şəhərlərdə daha çox vaksinasiyaya önəm verəcəyik. Bakı-Sumqayıt-Abşeronda vaksinasiyanın daha sürətlə həyata keçirilməsi bizim əsas prioritetlərimizdən biridir. Hamını vaksinasiya prosesində aktiv iştirak etməyə çağırıram. ÜST "AstraZeneca" vaksinindən istifadəni tövsiyə edir. Ölkəmizə hələlik "AstraZeneca" vaksini gətirilməyib. Vaksin ölkəyə gətirildikdən sonra ÜST-nin tövsiyələrinə əsasən tətbiqinə başlanacaq. Heç bir ölkə "AstraZeneca" vaksinini hələlik boykot etməyib, ÜST bu vaksindən istifadəni tövsiyə edir".

Britaniya ştammı bütün ölkələrə yayılır, qarşısını almaq mümkün deyil

Prezidentin köməkçisi bildirib ki, "Britaniya ştammı"nın hər hansı bir ölkə tərəfindən qarşısının alınması qeyri-mümkündür: "Necə ilkin ştamm yayılıb, digərləri də yayılacaq. Hətta fantastik bir şey də deyim ki, "Britaniya ştammı"na uyğun olaraq, yerli "Azərbaycan ştammı" da yayıla bilər".

Ş.Mövsümov qeyd edib ki, bayram günlərində ictimai nəqliyyatın hərəkətinə məhdudiyyət qoyulacaq. O əlavə edib ki, bundan başqa hər hansı məhdudiyyət tətbiq edilməyəcək: "Bu qərarın verilməsinə əsas səbəb yoluxmaların sayının artmasıdır. Müəyyən ciddi narahatlıqlar var. Britaniya ştammının da Azərbaycanda aşkar olunması bu narahatlığı artırır. Eyni zamanda son bir il ərzində Azərbaycanda səhiyyə sisteminin imkanları artırılıb. Bütün dünyada bu prosesə cəlb olunan texnologiyalar, tibbi avadanlıq alınıb. Eyni zamanda kütləvi vaksinasiya prosesi aparılır. Xəstəxanaların imkanlarına qarşı 1500-1600 xəstəmiz var. Bu bizə imkan verir ki, ciddi sərtləşməyə getməyək. Ancaq xəstəxanalarda doluluq faizi artarsa, xüsusi sərtləşdirilmiş rejimə, ciddi məhdudiyyətlərə getmək məcburiyyətində qalacağıq. Sərtləşmə ilə bağlı qərarlar bizim cari vəziyyətimizə uyğun olaraq verilir. Bu da hər bir vətəndaşımızdan asılı olan məsələdir. Üç təməl qaydaya riayət edilməlidir. Britaniya ştammının daha yoluxucu olması təsdiqlənib. Ona görə də bayram ərəfəsində bütün vətəndaşlarımızı özlərini məhdudlaşmağa çağırıram. Kim rayona gedəcəksə, orada da özlərini qorumağa çağırıram. Çünki saylar artsa, Operativ Qərargahın başqa yolu qalmayacaq. Biz daha sərtləşdirilmiş karantin rejiminə keçməyə məcbur olacağıq. Hazırda vaksinlər Azərbaycana gətirilir. Vaksin çatışmazlığı bizdən asılı olmayan səbəblərdəndir. Bu gün Azərbaycan qrafik əsasında CoronaVac vaksinini alır. İndiyə qədər 1 milyon yarıma yaxın vaksin gətirilib".

Yoluxmaların 52,9 faizi Bakıdadır

Konfransda çıxış edən Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin (TƏBİB) xəstəliklərin profilaktikası və kontrolu departamentinin müdiri Yaqut Qarayeva qeyd edib ki, yoluxmaların 52,9 faizi Bakıdadır: "Bizim üçün ən önəmlisi ümumi testlərin sayı deyil. Testlərin içərisində yoluxanların sayıdır. Aktiv xəstələrə həm evdə, həm də xəstəxanalarda müalicə alanlar daxildir. Dekabrın sonunda sərt karantin rejiminə keçəndən sonra yoluxma sayında kəskin azalma müşahidə edilirdi. Mərhələli şəkildə karantindən çıxmağa başlayanda tədricən yoluxmaların sayında artım müşahidə edildi. Bununla bərabər ən çox yoluxma faizi Bakıdadır ki, bu da 52,9 faizdir. Abşeron, Sumqayıt, Gəncə-Qazax bölgəsində il ərzində olduğu kimi yoluxmalar çox olaraq qalır. Bakı şəhərinin Xətai, Yasamal, Binəqədi rayonlarında yoluxmaların faizi yüksəkdir".

Britaniya ştammı daha sürətlə yayılır

Yaqut Qarayeva əlavə edib ki, əvvəlki mutasiyalardan fərqli olaraq, "Britaniya ştammı" daha sürətlə yayılır: "Dünyada hazırda SARS-COV-2 virusunun 3 variantı müşahidə edilir. Bunlardan biri də Britaniya ştammıdır. Virusların hamısında mutasiyalar baş verir. Qrip xəstəliyinə qarşı hər il yeni peyvənd istehsal olunur. Bu da qrip virusunda cürbəcür mutasiyaların baş verməsilə bağlıdır. Bu, normaldır. Bizi maraqlandıran baş verən mutasiyanın xəstəliyin gedişinə və yoluxmaya təsiridir. Britaniya ştammı daha əvvəlki mutasiyalardan fərqli olaraq, daha sürətlə yayılır. Bütün dünyada bu ştammın yayılması çox sürətlə baş verir. Ona görə də bu ştamm aşkarlanan ölkələrdə bəzi məhdudiyyətlərə gedilir. Bundan başqa, Braziliyada və Cənubi Afrikada da mutasiyalar aşkarlanıb. Onların da xəstəliyin gedişinə təsiri araşdırılır".

Aynurə Pənahqızı

Çavuşoğlu ilə NATO-nun Baş katibi telefonla danışıb

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə NATO-nun Baş katibi Yens Stoltenberq arasında telefon danışığı olub.

Türkiyə Xarici İşlər Nazirliyi xəbər verir ki, telefon söhbətində NATO-ya üzv ölkələrin xarici işlər nazirlərinin nəzərdə tutulan görüşü, eləcə də Liviya problemi də daxil olmaqla gündəlikdə duran bir sıra məsələlər ətrafında müzakirələr aparılıb.

Daha beş siyasi partiya ofislə təmin olunub

Fəaliyyət imkanlarının genişləndirilməsi, iş şəraitinin yaxşılaşdırılması məqsədilə siyasi partiyaların dövlət mülkiyyətində olan qeyri-yaşayış sahələri ilə təminatı prosesi davam etdirilir.

Azərbaycan İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, martın 19-da İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən daha beş siyasi partiyaya fəaliyyət göstərmələri üçün ofis sahəsi təqdim edilib.

Müstəqil Xalq Partiyası, Azərbaycan Azad Demokratlar Partiyası, Aydınlar Partiyası, Vəhdət Partiyası və Gələcək Azərbaycan Partiyasının nümayəndələri fəaliyyət göstərəcəkləri ofislərlə tanış olublar.

Ermənistanda əsgər valideynləri ayağa qalxıb

Onlar övladlarının Qarabağdan çıxarılmasını tələb edirlər

Azərbaycanın Qarabağ bölgəsində qanunsuz formada hərbi xidmətdə olan erməni əsgərlərin valideynləri Ermənistanın baş naziri Nikol Paşinyanla görüşdən narazı qalıblar.

"Report" "Sputnik Armeniya"ya istinadən xəbər verir ki, əsgər valideynləri yenidən hökumət binasının qarşısında toplaşaraq övladlarının dərhal tərxis olunmasını tələb ediblər.

"Baş nazir məsələlərin bizim tələblər nəzərə alınmadan iki həftəyə həll olunacağını dedi. Bu müddət ərzində oğullarımızın hərbi xidmətinin azaldılıb-azaldılmaycağı məlum olacaq", - görüş iştirakçılarından biri Suren Gevorkyan bildirib.

Onun sözlərinə görə, irəli sürdükləri tələblər 4 ay ərzində öz həllinin tapmayıb. Bununla yanaşı, hökumət evinin qarşısında itkin düşən hərbçilərin etiraz aksiyası davam edir. Onlar itkin düşmüş sayılan 500 əsgərlə bağlı məsələyə baş nazirin cavab verməsini tələb edirlər.

Ermənistan əhalisinin 70 faizi atəşkəsin qorunmasına tərəfdardır

Rəyi soruşulanların 79 faizi hesab edir ki, Qarabağdan köçən ermənilər Ermənistanda evlə və işlə təmin edilməlidir

Ermənistanda əhalinin 70%-i Azərbaycanla əldə edilmiş atəşkəs razılaşmasının qorunmasına tərəfdardır.

APA-nın xəbərinə görə, bu, ABŞ-ın Beynəlxalq Respublikaçılar İnstitutunun (İnternational Republican İnstitute) Ermənistanda keçirdiyi sorğunun nəticələrində əksini tapıb.

Belə ki, "10 noyabr atəşkəs razılaşmasından sonra Ermənistan hökumətinin fokuslanmalı olduğu növbəti addımlar nə olmalıdır?" sualına cavabında respondentlərin 97%-i hökumətin iqtisadiyyat, siyasi stabillik və sosial məsələlər kimi daxili problemlərə fokuslanmalı olduğunu qeyd edib.

Respondentlərin 70%-i hərbi münaqişənin yenilənməsi bahasına Ermənistanın atəşkəs razılaşmasından geri çəkilməsinin əleyhinədir, 25%-i lehinə, 5%-i isə bitərəfdir.

Rəyi soruşulanların 79%-i hesab edir ki, Dağlıq Qarabağdan köçən ermənilər Ermənistanda evlə və işlə təmin edilməlidir.

Sorğu bütün Ermənistan ərazisində 2021-ci ilin fevralın 8-dən 16-dək keçirilib, iştirakçılar RDD vasitəsi ilə (random digit dialing) seçilib.

"Ölkənin bu gün üzləşdiyi ən vacib problem nədir?" sualına isə paytaxt İrəvanda respondentlərin 18%-i işsizlik, 17%-i siyasi qeyri-stabillik, 11%-i Dağlıq Qarabağ münaqişəsi, 8%-i əsir və itkin düşənlərin qayıtması cavabını verib. 12% isə hərbi islahatlara ehtiyac olduğu qənaətindədir.

Eyni suala ölkənin digər şəhərlərində yaşayan respondentlərin 24%-i işsizlik, 20%-i siyasi qeyri-stabillik, 12%-i hərbi islahatların aparılması, 14%-i isə Dağlıq Qarabağ münaqişəsi cavabını verib. Sorğuda iştirak edən İrəvan sakinlərinin yalnız 15%-i hökumətdən narazılığını ifadə edib, şəhərlərdə və ucqar bölgələrdə yaşayan respondentlərin isə yalnız 8%-i hökumətin fəaliyyətinin ölkənin üzləşdiyi əsas problem olduğunu qeyd edib.

Zərifin səfəri günün tələbidir

Türkiyə İranı həm də böyük təzyiqlər dalğasından sığortalayır

İran Xarici işlər naziri Məhəmməd Cavad Zərif Türkiyəyə rəsmi səfərə gedib. O, İstanbulda türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə görüşüb.

Görüşdə İran-Türkiyə ikitərəfli münasibətləri müzakirə olunub, tərəflər regional və beynəlxalq mövzularda fikir mübadiləsi aparıblar.

Görüşü "Şərq"ə şərh edən politoloq Sədrəddin Soltan əsas müzakirə predmetlərini açıqladı: "Bu, Vətən müharibəsindən sonra Cavad Zərifin Türkiyəyə ilk rəsmi səfəri idi. Yəqin, çoxsaylı ortaq məsələlər barədə danışılıb.

Məsələn, Suriyada, İraqın şimalında terrorçulara qarşı mübarizə, həmçinin İranın atom-nüvə problemi haqqında fikir mübadiləsi aparıldığını düşünürəm. Bildiyiniz kimi, İranın atom-nüvə silahı ilə bağlı hələ də problemləri var.

Rəsmi Ankara bu məsələdə İrana dəfələrlə kömək edib.

Ola bilsin, rəsmi Tehran yenə yardım istəyəcək. Aralıq dənizinin şərq hissəsində Türkiyənin apardığı kəşfiyyat işlərinə dair İranın münasibətinin masaya çıxarılması mümkündür.

İranla olan əməkdaşlığa görə, ABŞ-ın Türkiyəyə qarşı sərt mövqeyi, təzyiqləri aydındır. Yəqin, Çavuşoğlu bu məqam barədə narahatlığı qarşı tərəfə çatdırıb.

Eyni zamanda dialoqun bir mövzusu da 3+3 əməkdaşlıq formatı və İranın həmin birliyə verə biləcəyi töhfələr ola bilər. Hər halda aktual, müzakirə edilməli mövzular çoxdur".

Kənan

Böyük Britaniya səfiri Azərbaycan xalqını təbrik etdi

Böyük Britaniya səfiri Ceyms Şarp Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edib.

Təbrikdə deyilir:

"Əziz dostlar, Novruz bayramınızı təbrik edirəm. Sizə can sağlığı, sülh, əmin-amanlıq və firəvan həyat arzulayıram. Novruz bayramınız mübarək!"

Ərdoğan Avropa İttifaqının rəhbərliyi ilə videokonfrans formatında görüşüb

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Avropa Komissiyasının Prezidenti Ursula von der Leyenlə görüşü keçirilib.

APA-nın "Anadolu" agentliyinə istinadən verdiyi xəbərə görə, görüş videokonfrans formatında baş tutub.

Görüşdə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu, Türkiyə Prezident Administrasiyasının İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Fəxrəddin Altun və Türkiyə Prezidentinin sözçüsü İbrahim Kalın da iştirak edib.

İmkanlar qeyri-bərabərdir

Müxalifət heç bu qədər gücsüz olmamışdı

Ermənistan hökumətinin başçısı Nikol Paşinyan iyunun 20-də erkən seçkilərin keçiriləcəyini açıqlayıb. Baş nazirin sözlərinə görə, martın 18-də "Çiçəklənən Ermənistan" partiyasının lideri Qaqik Sarukyanla görüşüb. Tərəflər mövcud daxili siyasi vəziyyətdən ən yaxşı çıxış yolunun erkən parlament seçkiləri olduğu qənaətinə gəliblər.

Ermənistan müxalifəti isə erkən seçkilərdə səsvermə nəticələrinin saxtalaşdırılacağından narahatdır, lakin bəzi müxalif partiyalar yenə də seçkilərdə iştirak edəcəklər. Bundan əvvəl Ermənistanın ikinci prezidenti Robert Koçaryan da seçkilərdə iştirak etməyə hazır olduğunu elan etmişdi.

Müxalif "Vətənin xilası" hərəkatının lideri Vazgen Manukyan isə erkən parlament seçkilərində iştirakdan imtina etdiyini açıqlayıb. Üstəlik, siyasətçi 20 iyunda keçirilməsi planlaşdırılan bu seçkilərin ümumiyyətlə baş tutacağına şübhə etdiyini bildirib. Rusiyalı politoloq Sergey Mixeyev deyib ki, Ermənistanın Baş naziri Nikol Paşinyan erkən seçkilərdə qalib gələcəyinə inandığı üçün belə bir addım atmağa qərar verib. Lakin məğlub olduğu təqdirdə istefa verməli olacaq: "Bir tərəfdən, Paşinyan müxalifətin təzyiqi altında seçkiləri elan etdi və düşünür ki, seçkiləri qazanmalıdır. Bu, onun növbəti dövr üçün səlahiyyətlərini təsdiqləyəcək. Yəqin ki, qazanacağını düşünür, əks təqdirdə, getməli olacaq. Başqa variant olmayacağını düşünürəm".

Düşmən ölkədə baş verənləri "Şərq"ə təhlil edən "Atlas" Araşdırmalar Mərkəzinin siyasi eksperti Samir Hümbətov deyib ki, Ermənistanda yaşananlar cəmiyyətdəki ciddi qarşıdurmanın və parçalanmanın göstəricisidir. Analitik vurğulayıb ki, iyun ayına çox zaman qalmayıb: "Bəs, Baş nazir Nikol Paşinyan niyə iyun ayına növbədənkənar seçkilər təyin edib? Xatırlayırsızsa, bir müddət öncə erməni xəbər saytlarında bir məlumat yayıldı. Qeyd olundu ki, keçirilən sorğularda respondentlərin 50 faizi növbədənkənar seçkilərə qatılacağını, 40 faiz isə qəti fikrini bəyan etməyib. Ümumən sorğuda iştirak edənlərin 30 faizdən çoxu yenidən Nikol Paşinyana səs verəcəyini açıqlayıb. Bu nəticələr Yerevan hökumətində arxayınlıq yaradıb. Paşinyan hökuməti ölkədə vəziyyətin kifayət qədər gərgin olmasına baxmayaraq, prosesləri nəzarətdə saxlamaq imkanına malik olduğunu düşünür. Yəni nə qədər ki, imkan var, seçki keçirib qalib olmağa çalışır. Paşinyan həm də müxalifət düşərgəsinin hay-küyünün qarşısını almaq üçün seçki qərarı verməyə məcbur qaldı. Baş nazir fərqindədir ki, hazırda ölkədə müxalifət partiyalarının reytinqi çox aşağıdır. Bunu İkinci Qarabağ savaşının bitməsindən sonrakı dövrdə Ermənistanda baş verən siyasi proseslər və keçirilən etiraz aksiyalarında iştirak edən əhalinin azlığı aydın şəkildə göstərir".



Paşinyan tez seçki keçirib qalib olmağa çalışır və buna əmindir

S.Hümmətov vurğulayıb ki, özünü müxalifətin əsas lideri hesab edən Manukyan buvaxtadək müəyyən formada manipulyasiyalar edə bilirdi. "Seçkilərə qatılaq", "qalib olaq" kimi şüarlarla özünə tərəfdar toplayırdı: "Manukyan ölkədəki ümumi gərgin ab-havadan öz xeyrinə istifadə edirdi. Amma bir müddət sonra bunun effektsiz olduğunu gördü. Çünki Manukyanın başçılıq etdiyi müxalifət koalisiyası bir neçə mitinq keçirtsə də, nəticə ürəkaçan olmadı. Bilir ki, Paşinyanla seçkiyə girsə və məğlubiyyətə uğrasa, müxalifətə inam tamamilə itəcək. Nəticədə Paşiniyan öz hakimiyyətini möhkəmləndirəcək. Manukyan bu səbəbə görə seçkiyə getməkdən ehtiyatlanır. Paşinyan seçki gününə kimi bütün gücü ilə çalışacaq ki, vəziyyəti özünün xeyrinə saxlasın və administrativ rıçaqlardan istifadə etməklə seçkidən qalib çıxsın. Baş nazir qısa zamanda müxalifətin toparlana bilməyəcəyinə əmindir. Ona görə də istefa vermədən seçkilər elan etməklə müxalifət üzərində öz istədiyini diktə edir. Əlbəttə, müxalifətin iddia etdiyi kimi seçkidə saxtakarlıq ola bilər. Bu hal erməni cəmiyyəti üçün normaldır. Amma seçkinin baş tutma ehtimalı mümkündür. Çox güman ki, nəticələr Paşinyanın istədiyi kimi olacaq. Əgər Ermənistanda qeyri-adi, fövqəlhadisə yaşanmasa, silahlı çevriliş cəhdi olmasa, Paşinyan hakimiyyəti yenidən öz əlinə alacaq".

İsmayıl Qocayev

ABŞ-la əlaqələr daha dinamik xarakter alacaq

Məlum olduğu kimi, ABŞ Prezidenti Co Bayden Prezident İlham Əliyevə Novruz bayramı münasibətilə təbrik məktubu ünvanlayıb. Bu, iki ölkənin dövlət başçıları arasında ilk rəsmi təmasdır. Ağ Ev rəhbərinin məktubunda Azərbaycana, onun regionda əhəmiyyətli aktorlardan biri olmasına diqqət çəkilir.



Vaşinqton Azərbaycanın tarixi qələbəsi nəticəsində regionda yaranmış yeni reallığı görür

Bayden Amerikanın Azərbaycanla əməkdaşlıq siyasətinə sadiqliyini vurğulayıb. O, təhlükəsizliklə bağlı ümumi narahatlıqlar və regional sülh məsələlərinin həlli istiqamətində Azərbaycanla birgə çalışmaq niyyətini bildirib. Bundan başqa, ABŞ-ın ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olduğunu xatırladan Bayden ölkəsinin firavan və dinc gələcək naminə Ermənistan və Azərbaycan arasında barışığın təşviq olunmasına çalışacağını bəyan edib. Qeyd etmək lazımdır ki, bu fikir 10 noyabr bəyanatında əksini tapmış məsələlərin reallaşması və davamlı sülhün bərqərar olunması istiqamətində həyata keçirilən siyasi kursa uyğundur. Bayden həmçinin iqtisadiyyatın şaxələndirilməsi istiqamətində Azərbaycanın həyata keçirdiyi siyasətə və islahatlara dəstəyini ifadə etdiyini vurğulayıb. ABŞ prezidenti ölkəsinin Azərbaycanla iqtisadi əməkdaşlıq üçün yeni imkanları nəzərdən keçirmək arzusunda olduğunu da ifadə edib.

Rəsmi Bakı ilə Vaşinqton arasında fəal siyasi dialoq, müxtəlif sahələri əhatə edən qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri mövcuddur. Qarşıdan gələn dövrdə Azərbaycanla müxtəlif sahələri əhatə edən əməkdaşlığın inkişaf etdirilməsi Ağ Evin Cənubi Qafqaz regionunda siyasi prioritetləri sırasına daxildir.

Millət vəkili Anar Məmmədov ABŞ-Azərbaycan əlaqələrinin strateji xarakter daşıdığını deyib. Deputatın sözlərinə görə, Baydenin təbriki iki dövlət arasında olan münasibətlərin yeni inkişaf mərhələsinə qədəm qoyduğunun göstəricisi kimi qəbul edilə bilər: "Azərbaycanın xarici siyasət prioritetləri arasında ABŞ-la münasibətlər mühüm yer tutub. Bu münasibətlər ikitərəfli və çoxtərəfli əməkdaşlığın müxtəlif sferalarını əhatə etməklə, hər iki dövlətin milli maraqlarına cavab verir. Dünyanın super dövləti olaraq Amerika ilə münasibətlərin normal səviyyəyə qaldırılmasında ölkəmizin demokratik dünyaya inteqrasiyası mühüm rol oynayıb. Digər tərəfdən ölkəmizin Avropanın enerji təchizatı sahəsində əhəmiyyətli rolu da Bakı-Vaşinqton münasibətlərini dərinləşdirən faktorlardandır. Təsadüfi deyil ki, 1994-cü ildə bağlanmış "Əsrin müqaviləsi"ndə və sonrakı mərhələlərdə bağlanmış digər neft-qaz kontraktlarında xeyli sayda Amerika şirkəti təmsil olunur. Bildiyimiz kimi, Prezident Co Baydenin vəzifəsinin icrasına başlamasından sonra iki ölkə arasında ali siyasi səviyyədə təmas olmayıb. Bu məktub ABŞ-ın yeni prezidentinin Azərbaycanla yaxın əməkdaşlıqda maraqlı olduğunu göstərir".

Parlament üzvü vurğulayıb ki, Azərbaycan Amerikanın dəstəyi ilə formalaşan beynəlxalq antiterror tədbirlərinə sülhün və təhlükəsizliyin təmin edilməsinə öz töhfəsini verir: "ABŞ-a Azərbaycan kimi davamlı iqtisadi inkişafa malik olan müttəfiq lazımdır. 2001-ci ildə törədilən dəhşətli terror aktında Vaşinqtonun bəzi müttəfiqləri antiterror əməliyyatlarında ABŞ-ı dəstəkləmək üçün müəyyən şərtlər irəli sürdülər. Lakin Azərbaycan qeyd-şərtsiz Ağ Evi dəstəklədiyini bəyan etdi və beynəlxalq terrorçuluğa qarşı mübarizədə hər cür kömək göstərdi. İndi ABŞ-ın yeni Administrasiyası İkinci Qarabağ müharibəsi və Azərbaycanın tarixi qələbəsi nəticəsində regionda yaranmış yeni reallığı görür. Bu reallıqlar çərçivəsində Azərbaycanın regionda sabitliyin və təhlükəsizliyin təminatında, o cümlədən qlobal enerji təhlükəsizliyində mühüm rol oynayan dövlət olduğunu aydın dərk edir. Ötən illər ərzində iki dost ölkə arasında münasibətlərin təhlili də göstərir ki, Azərbaycanla Amerika arasında olan münasibətlər mahiyyət etibarilə dinamik xarakter daşıyır".

İsmayıl

Diplomatik gərginlik davam edəcək

Nə qədər ki, Bayden Ağ Evdədir, Rusiya ilə dialoq mümkün olmayacaq



ABŞ-la Rusiya arasında gərginlik artmaqdadır. Belə ki, Putin rusiyalı həmkarını "qatil" adlandırdıqdan sonra şimal qonşumuz həmin ölkədəki səfirini geri çağırdı. Bununla kifayətlənməyən Putin ABŞ-ın yeni iqtidarına sözlə də cavab verdi: "Mən ona "sağlam ol" deyərdim. Başqa insanları və ölkələri dəyərləndirməzdən əvvəl güzgüyə baxmaq lazımdır".

Nəzərə almaq lazımdır ki, Bayden hələ cəmi bir neçə aydır ki, hakimiyyətdədir. Qarşıda isə "Baydenli illər" var. İndiki vəziyyəti nəzərə alsaq, yaxın illərin Rusiya üçün yaxşı nəsə vəd etmədiyini söyləyə bilərik.

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu Vaşinqton-Moskva münasibətlərini "Şərq"ə təhlil etdi. O, tərəflər arasındakı gərginliyin artacağını düşünür: "Münasibətlər onsuz da yaxşı deyildi. Baydenin son açıqlaması isə vəziyyəti gərginləşdirdi. ABŞ müttəfiqlərinin Rusiyaya qarşı adekvat addım atmasına çalışacaq. Kreml də öz növbəsində təsiri altındakı dövlətlərə həssas yanaşacaq.

Məsələn, Ermənistan baş nazirinin bu günlərdə ABŞ dövlət katibi ilə telefon danışığı Moskvada ciddi şübhələr, suallar yaradır.

İki lider arasında diplomatik gərginlik qalacaq. Əsas məsələ münasibətlərin hərbi sferaya keçməməsidir. Çünki bu zaman böyük tələtümlər yaşanacaq. Hər iki tərəf hərbi toqquşmadan qaçmalıdır. Amma dediyim kimi, nə qədər ki, Bayden Ağ Evdədir, Rusiya ilə dialoq mümkün olmayacaq".

E.Şahinoğlunun fikrincə, mövcud imkanlar etibarı ilə ABŞ heç də rəqibindən zəif deyil: "Hətta Türkiyə-Rusiya müttəfiqliyi fonunda belə, ABŞ-ın təklənəcəyini düşünmürəm.

Çünki bu dövlətin müttəfiqləri kifayət qədərdir.

ABŞ Rusiya ilə əməkdaşlıq edən bəzi dövlətləri, məsələn, Almaniyanı cəzalandırmaq iqtidarındadır.Yəni istənilən halda rəsmi Vaşinqtonun imkanları daha genişdir. Bayden Rusiyanın Amerikadakı prezident seçkilərinə müdaxiləsinə dair ciddi dəlillərə malik olduğunu deyir.

Əgər onlar isbatlansa, üzə çıxsa, münasibətlər daha da gərginləşəcək".

Kənan Novruzov

ABŞ və Rusiya qarşıdurması böyük təhlükələr vəd edir

Rusiya Prezidenti Vladimir Putin amerikalı həmkarı Co Baydenə müzakirənin canlı efirdə davam etdirilməsini təklif edib və bunun Rusiya və ABŞ xalqları üçün maraqlı olacağını bildirib. Putin deyib ki, keçən dəfə telefon danışığı ilə bağlı təşəbbüs Prezident Baydendən gəlib:

Belə gərgin vəziyyət Qərblə Rusiya hərbi rəhbərliyi arasında Bakıda yeddinci görüşün keçirilməsini şərtləndirə bilər

"Prezident Baydeni müzakirəmizi davam etdirməyə dəvət etmək istəyirəm, ancaq bunu bir şərtlə, birbaşa efirdə həyata keçirək. Mənə elə gəlir ki, bu, Rusiya və Amerika xalqları üçün maraqlı olacaq". Rusiya prezidenti amerikalı həmkarı ilə münasibətlərin davam etməsində maraqlı olduğunu deyib. Lakin Co Bayden administrasiyası Putinin canlı yayım müzakirəsi təklifindən imtina edib. Amerikalılar isə bunu Ağ Ev rəhbərinin zəifliyi kimi qələmə veriblər: "Putin Co Baydeni hazırlanmış senari olmadan canlı yayımda debata dəvət etdi. Bütün dünya bilir ki, bizdə lap yuxarıda lider yoxdur. Amerikanın rəqibləri bu zəifliyə baxır və sevinirlər".

Millət vəkili Elman Nəsirov ABŞ-Rusiya münasibətlərinin ən mürəkkəb dövrünü yaşadığını deyib. Deputatın sözlərinə görə, əslində ABŞ-la Rusiyanın münasibətləri həmişə ziqzaqvarı inkişaf yolu ilə seçilib: "Onlar bir-birinə həmişə daimi siyasi rəqib kimi baxıblar. Amma Co Bayden prezidentliyə başladıqdan sonra münasibətlərin gərginləşmə tempi artıb. Gərginliyin zirvə nöqtəsi Baydenin açıq şəkildə Vladimir Putini qatil adlandırması olub. Bu artıq o deməkdir ki, tərəflər arasında bütün körpülər yandırılıb. Rusiya tərəfi Ağ Evə qarşı analoji davranış həyata keçirəcəyini bildirib. İki dövlət arasındakı münasibətlərin daha da gərginləşməsi istisna edilmir. Məsələ ondadır ki, ABŞ və Rusiya kimi iki nəhəng fövqəldövlətlər arasında münasibətlərin həddindən artıq pisləşməsi çox böyük təhlükələr yarada bilər. Belə gərgin vəziyyət Qərblə Rusiya hərbi rəhbərliyi arasında Bakıda yeddinci görüşün keçirilməsini şərtləndirə bilər. Bilirsiz ki, tərəflər arasında bir neçə təmaslar məhz paytaxt Bakıda baş tutub".

İsmayıl

“Bu dərəcədə dəhşətli vandalizmi təsəvvürümə gətirmirdim”

Partiya sədri Qarabağa ayaq basanda sarsılıb

Xəbər verdiyimiz kimi, Azərbaycanda fəaliyyət göstərən siyasi partiya rəhbərlərinin işğaldan azad edilən Ağdam şəhərinə səfəri baş tutub. Partiya sədrlərini Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev müşayiət edib.

Nümayəndə heyəti Ağdamda 30 ilə yaxın müddət ərzində ermənilər tərəfindən törədilmiş vəhşilik və dağıntılarla tanış olublar. Siyasi təşkilat rəhbərləri şahidi olduqları erməni vəhşiliklərindən dəhşətə gəldiklərini bildiriblər.

İşğaldan azad edilmiş rayonlarımıza səfər barəsində fikirlərini ”Şərq”lə bölüşən Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib ki, erməni vəhşiliyi nəticəsində viran qalmış şəhər və kəndlərdəki real vəziyyətlə yerində tanış olublar. Partiya rəhbəri bildirib ki, 30 illik işğal mənzərələrinə baxmaq üçün özünü psixoloji cəhətdən hazırlasa da, həmin torpaqlara ayaq basanda gerçəkdən sarsılıb: ”Ağdamın erməni vandalları tərəfindən yerləyeksan edildiyini, tamamilə dağıdıldığını bilirdim. Ancaq bu dərəcədə dəhşətli vandalizmi təsəvvürümə gətirmirdim. Gördüklərimdən heyrətə gəlmişəm. Bu dərəcədə vəhşilik, barbarlıq olarmı, ilahi? Ağdam müharibə zamanı yox, məhz işğal dövründə dağıdılıb, talan edilib. Yarıuçuq divarlar, xarabalıqlar əsla bombalar, mərmi partlayışları nəticəsində bu hala düşə bilməzdi. Ermənilər işğalın verdiyi fürsətdən istifadə edib buranı sadəcə talan ediblər. Əllərinə keçən hər şeyi daşıyıb aparıblar. Bu isə onların diləngi və qəsbkar xislətindən irəli gəlir. Həm də Şuşa ilə bərabər Ağdamın da biz azərbaycanlılar üçün müqəddəs bir məkan olduğunu bildikləri üçün belə ediblər. Yəni ki, bizə qarşı etnik-milli zəmində nifrətlərinin, düşmənçiliklərinin əvəzini Ağdamdan çıxıblar. Bizə psixoloji travma yaşatmaq məqsədilə Ağdamın daşını daş üstə qoymayıblar. Ağdamı bu hala yalnız insanlıq hissindən və bəşəri dəyərlərdən məhrum olan vəhşi bir qəbilə sala bilərdi. Ermənilər məhz qəbilədir və sürü psixologiyasının daşıyıcılarıdır. Kim bu həqiqətə əmin olmaq istəyirsə, getsin Ağdamdakı erməni işğalının izlərini canlı-canlı izləsin”.

Partiya sədri ermənilərin törətdikləri vəhşiliklə bağlı beynəlxalq təşkilatlara da səslənib: ”Milli Həmrəylik Partiyası olaraq ermənilərin Qarabağda törətdikləri vəhşiliklərə göz yuman, bu işğalçı qüvvəni hələ də mədəni millət hesab edən bütün beynəlxalq təşkilatların rəhbərlərinə və Ermənistana havadarlıq edən dövlətlərin liderlərinə səslənirik. Onları Ağdama və işğaldan azad edilmiş digər ərazilərimizə dəvət edirik. Buyurub gəlsinlər və hətta alman faşizminin qəddarlığını da kölgədə qoya biləcək erməni faşizminin törətdiyi dəhşətləri öz gözləri ilə görsünlər. Dünya bu vəhşiliklərə mütləq hüquqi və siyasi qiymət verməlidir. Eyni zamanda erməni faşizmini himayə edənləri də hər kəs tanımalıdır”.

İsmayıl Qocayev

“Qarabağda özümüz də iş görməliyik"

Aqil Abbas: “Gərək hər şeyi qardaşdan gözləməyək”

Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri Bəkir Pakdemirli Qarabağın Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər edib.

Türkiyənin Bakı səfirliyindən verilən məlumata görə, B.Pakdemirli Kənd təsərrüfatı naziri İnam Kərimov ilə birlikdə Cəbrayıl rayonunda yem bitkiləri toxumu əkiblər. Ardınca isə Zəngilanda olan nazirlər ”Qardaşlıq bağı”nda 5 ha. ərazidə Türkiyədən gətirilən meyvə ağaclarını əkiblər. Bu, iki qardaş dövlət arasında əlaqələrin, birliyin növbəti bariz təzahürüdür.

Türkiyəli nazirin Qarabağa səfəri barədə ”Şərq”ə danışan millət vəkili Aqil Abbas bunu yüksək qiymətləndirdi: ”Əlbəttə, sağ olsun ki, gəlib. O, mütəxəssisdir. Harda nəyi əkmək lazım olduğunu yaxşı bilir. Şübhəsiz, tövsiyələrini verdi. Amma gərək hər şeyi qardaşdan gözləməyək. Özümüz də iş görək. Qarabağda 60 sent taxıl yığmaq mümkündür. Sadəcə torpaq monopolistə yox, kəndliyə verilməlidir. Onda nəticə də, məhsul da olacaq”.

Kənan

Jurnalist xərçəngə tutuldu

Həkimlər Səbinə Əvəzqızının müalicə ilə sağala biləcəyini bildiriblər

Tanınmış jurnalist Səbinə Əvəzqızında xərçəng xəstəliyi aşkarlanıb.

Yaxınları ”Qafqazinfo”ya bildirib ki, hazırda jurnalistin xəstəliyi ağır fazadadır. Həkimlər S.Əvəzqızının müalicə ilə sağala biləcəyini bildiriblər. Lakin bunun üçün təcili müalicəyə başlanılmalıdır.

Müalicə üçün böyük məbləğ tələb olunduğu üçün S.Əvəzqızının ailəsi bunu qarşılaya bilmir.

Qeyd edək ki, S.Əvəzqızı 1990-cı illərdən jurnalistika fəaliyyəti ilə məşğul olur. ”Yeni Müsavat”, ”Gün Səhər” qəzetlərində, ”Həftə içi” qəzetinin Hafta.az saytında işləyib.

Hazırda Lent.az saytının redaktorudur.

Daha bir məktəb distant təhsilə keçdi

Quba rayonu Alekseyevka kənd tam orta məktəbində dərs deyən müəllimdə koronavirus infeksiyasının əlamətləri aşkar olunub.

Məktəbin direktoru İsa Əlixanlı bildirib ki, məktəbdə Azərbaycan dili və ədəbiyyatı fənnini tədris edən müəllimə Məhsimova Gülxar Sabir qızının həyat yoldaşında infeksiyasının əlamətləri aşkar edildiyindən, o da koronavirus testi verib, nəticəsi ”pozitiv” çıxıb:

”Bu səbəbdən 19 mart 2021-ci il tarixindən 02 aprel 2021-ci il tarixədək məktəbdə tədris distant təhsil şəklində tədris olunacaq. Hazırda, müəllimə ambulator şəraitdə, həkim nəzarətində müalicə olunur. Gülxar müəllimənin 30 ilə yaxın iş təcrübəsi var”.

“Qarabağa silah və quldur dəstələr daşınır”

Qarabağdakı sülhməramlılarla bağlı narazılıqlar getdikcə artmaqdadır. Bunun səbəbkarı isə elə onlar özləridir. Belə ki, xüsusi şəhərciyin tikilməsindən ”xoşhal” olan rus hərbçiləri lap ”ayaqlarını ayaqlarının üstünə aşırmağa” qərar veriblər.

Statusları ilə fəaliyyətləri üstə-üstə düşməyən əsgərlər gərək bu ikisindən birini dəyişsinlər. Ya da birdəfəlik torpaqlarımızdan çıxsınlar. Onsuz da sabitliyi təmin etməyi bacarmadılar. Daha dəqiq desək, sülh üçün nəsə etmədilər.

Rusiyada yaşayan soydaşımız, texnika elmləri doktoru, professor Kamran Rüstəmov bu barədə ”Şərq”ə danışarkən bildirib ki, sülhməramlıların fəaliyyətinə ciddi nəzarət lazımdır: ”Respublika parlamenti səviyyəsində Rusiyanın sülhməramlı qüvvələrinin statusunu təyin edən sənəd qəbul edilməlidir. Azərbaycanda bəzi politoloqların BMT-nin belə bir sənədinin olması barədə savadsız ifadələri tənqidlərə tab gətirmir. Bu, BMT Təhlükəsizlik Şurasının qərarı ilə müəyyən bir ölkəyə gətirilən sülhməramlılara aiddir.

Kamran Rüstəmov: “Parlament sülhməramlılarla bağlı sənəd qəbul etməlidir”

Parlament sənədində isə Rusiya sülhməramlılarının hüquq və vəzifələri açıq şəkildə göstərilməlidir. Bu, onların Azərbaycan ərazisindəki bəzi hərəkətlərinin müxtəlif cür şərh edilməsinə imkan verməyəcək.

Qarabağ ərazisinə kimlər gəlir, nə gətirir, hansı ölkənin vətəndaşlarıdır, gəlişinin məqsədi və s. kimi məqamlar sözügedən missiyanın yerinə yetirilməsnə ciddi zərbə vura bilər.

“Sülhməramlılar nəzarət etmir, buna Kreml cavabdehdir”

Sülhməramlıların ”çətiri” altında müxtəlif quldur birləşmələrinin təxribatçı hərəkətləri üçün qüvvələr toplaması yaxşı hal deyil. Bir neçə aydır bu qanunsuz silahlı dəstələri kimin tərksilah edəcəyini, qanunsuz silahlı qrupların tərksilah prosesinin həyata keçirilməsinə kimin nəzarət edəcəyini yazıram. Müxtəlif mənbələrə görə, sülhməramlılar Qarabağ ərazisinə silah idxalına nəzarət etmirlər”.

Professorun fikrincə, Moskva da məsələyə həssas yanaşmalıdır:

”Dediyim kimi, yaradılan Monitorinq Mərkəzi həmin nəzarəti həyata keçirə bilmir. Ərazidə baş verən qanunsuz prosesləri kontrolda saxlamaqdan ötrü təsirli mexanizmlər yaratmaq lazımdır.

Şər əməllərin və bütün qanunsuzluğun əsas daşıyıcısı ”Artsax respublikasının” ”qurumları”dır! Bunlar tamamilə dağıdılmalıdır. Bütün güc müvəqqəti olaraq hərbi strukturlara verilməlidir.

Əgər Azərbaycan Rusiya sülhməramlılarının ölkənin Qarabağ ərazisində fəaliyyətinə razılıq vermişdisə, deməli, burada Azərbaycan qanunlarına riayət edilməsinə görə Kreml cavabdeh olmalıdır.

Bütün bu məsələlərin birlikdə, hərtərəfli həlli olmadan gələcəkdə Rusiya-Azərbaycan münasibətlərinə zərər verə biləcək proseslər meydana çıxacaq”.

Kənan Novruzov

Seyran Səxavət - 75

Hər kəs tərəfindən etiraf olunan istedad...

Seyran Səxavət Azərbaycan və dünya oxucularının rəğbətini qazanıb

Hörmətli Seyran müəllim!

Siz - Seyran Səxavət (Xanlarov Seyran Əsgər oğlu) 1946-cı il mart ayının 23-də Füzuli rayonunun (keçmiş Qarabulaq) Yağlıvənd kəndində anadan olmusunuz. 1962-ci ildə doğma kəndinizdə orta məktəbi başa vurandan sonra iki il X.B.Natavan adına Füzuli şəhər orta məktəbində direktorun köməkçisi vəzifəsində çalışmış, 1964-cü ildə uğurla imtahan verərək Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə qəbul olunmuş, fars dili üzrə tərcüməçi ixtisasına yiyələnmisiniz. Sovet ordusunda xidmət keçdiyiniz illərdə (1970-1972) SSRİ Müdafiə Nazirliyinin tərcüməçisi kimi fars dili üzrə ixtisasınızıtəcrübi olaraq daha da dərinləşdirmisiniz.

Sonrakı fəaliyyətinizin əhəmiyyətli qismi Azərbaycan Yazıçılar Birliyinin mətbuat orqanlarında yaradıcı əməyinizlə bağlı olmuşdur. Siz 1973-cü ildən etibarən dövrün ən nüfuzlu nəşrlərindən olan "Ədəbiyyat və İncəsənət" qəzetində xüsusi müxbir, ədəbi işçi vəzifələrini tutmusunuz.

1974-1976-cı illərdə ixtisasınızla əlaqədar Sovet İttifaqından İran dövlətinə ezam olunmuş, orada iki il tərcüməçi kimi fəaliyyət göstərmisiniz. 1976-1981-ci illərdə "Ədəbiyyat və İncəsənət" qəzetində, 1981-1991-ci illərdə isə "Ulduz" jurnalında ədəbi işçi, şöbə müdiri vəzifələrində çalışmış, milli teatrlarımızın səhnə-tamaşa həyatının elmi-publisistik və sənətşünaslıq yönündən işıqlandırılmasında, Azərbaycan ədiblərinin nəsr əsərlərinin (hekayə, povest, roman) seçilib nəşrə hazırlanması və geniş oxucu dairələrinə çatdırılmasında uzunmüddətli, ciddi əmək sərf etmisiniz.

1962-ci ildən, ömrünüzü bədii yaradıcılığa həsr edərək yaratdığınız hekayə, povest, romanlarınızla, bədii-publisistik əsərlərinizlə Azərbaycan ədəbiyyatını zənginləşdirmiş, hər kəs tərəfindən etiraf olunan istedadlı bir yazıçı kimi Azərbaycan və dünya oxucularının rəğbətini qazanmısınız.

Hörmətli Seyran müəllim!

Siz bədii yaradıcılığa ötən əsrin 60-cı illərinin lap əvvəllərində başlamış, 1962-ci ildə Füzuli rayonunda çıxan "Qızıl Araz" qəzetində "İki arzu" adlı ilk şeirinizi çap etdirmisiniz. Poetik axtarışlarınızın yekunu kimi meydana çıxan, özündən əvvəlki poeziya örnəklərindən və həmyaşıd qələm dostlarınızın yazdıqlarından tamamilə fərqlənən novator şeirləriniz dillər əzbəri olmuş, Azərbaycan gəncliyinin ən ülvi hisslərini ifadə etmişdir. 1970-ci ildə ilk şeir kitabınız - "Adalar", 1977-ci ildə yenə poetik axtarışlarından ibarət "Mənim planetim" kitabınız çap olunmuş, şeirlərinizin böyük qismi "Seçilməmiş əsərlər" çoxcildliyinizin ilk cildində yer almışdır.

İran dövlətində (indiki İran İslam Respublikası) tərcüməçi işləyərkən qələmə aldığınız ilk hekayəniz - "Hamı elə bilirdi" adlı əsəriniz 1976-cı ildə "Ədəbiyyat və İncəsənət" qəzetində çap olunmuş, bununla da sizin yaradıcılığınızın, həm də müasir Azərbaycan nəsrinin yeni bir səhifəsi açılmışdır.

Müxtəlif illərdə işıq üzü görən nəsr əsərlərindən ibarət(hekayə, povest, roman) kitablarınız: "Hamı elə bilirdi" (1982), "Daş evlər" (1985, təkrar işlənmiş nəşr - 1989), "Bozoqo ajıra telekey" ("Qapıların o üzündə qalan dünya" - Dağlıq Altay, 1985), "Dar köynək" (1987), "Qızıl teşt" (1999), "Ptit-yajenie" (Cazibə", Moskva, 1990), "Nekroloq" (2003), "Palıd toxumu" (2003), "Yüz ilin kişisi" (2005), "Krepkoe semya" ("Palıd toxumu" Moskva, 2007), "Yəhudi əlifbası" (2009), "Bəhanə" (2009), "Qaçhaqaç" (I kitab, 2010, II kitab 2017), "Seçilməmiş əsərlər" (I-II cildlər, 2015), "Kenquru" (2019) ibarət kitablarınız həm istedadlı, orijinal və məhsuldar bir yazıçı olaraq sizin, həm də 50-60 ildə yaradılan müasir Azərbaycan nəsrinin bədii-fəlsəfi tutumunu əks etdirməkdədir.

Sizin şeirləriniz və nəsr əsərləriniz dünyanın bir çox dillərinə - türk, əfqan, ingilis, fransız, alman, ispan, rus, fars, ərəb, ukrayna, gürcü, erməni, tacik, qırğız, moldova, altay və sair çevrilmişdir. Keçmiş SSRİ-nin, indiki Rusiya Federasiyasının paytaxtı Moskva şəhərindəişıq üzü görən nəsr əsərlərinizdən ibarət kitabınız 100 min tirajla yayılmışdır.

Həm poetik, həm nəsr əsərlərinizdəki orijinallıq, misilsiz milli kolorit, bədii düşüncənin özünəməxsus ifadə tərzi, dərin və mənalı yumor elementləri, unikal şair-yazıçı yaddaşı, nəsrlə şeirin təbii və mütəhərrik sintezi ciddi oxucu marağı doğurur. Sizin əsərlərinizdə milli və bəşəri, fərdi və ümumi çulğaşaraq təbiətin, insan mənəviyyatının, ümumən cəmiyyətin mükəmməl panoramını yaradır, adamları düzgün, cəsarətli, mərd, səxavətli, öz kökünə, millətinə, dövlətinə ən əsası özünün öz mənliyinə bağlı yaşamağa dəvət və təhrik edir.

Hörmətli Seyran müəllim!

Siz həm də ədəbiyyat və incəsənəti sevərlər arasında ən insani duyğuları, ən sərt həqiqətləri ifadə etməyə qadir bir dramaturq kimi tanınırsınız. "Qızıl teşt" (1988), "Büst" (1989), "Qapıların o üzündə qalan dünya" (1990) pyeslər-iniz, Azərbaycan Akademik Milli Dram Teatrı başda olmaqla Respublikamızın bir çox peşəkar teatr kollektivlərində tamaşaya qoyulmuş, izləyicilər tərəfindən hərarət və dərin estetik təəssüratla qarşılanmışdır. Bununla yanaşı, dramatik əsərləriniz əsasında bir çox televiziya tamaşaları hazırlanmış, radio pyeslər-iniz səsləndirilmişdir.

Hörmətli Seyran müəllim!

Sizin bədii publisistika və bədii tərcümə sahəsində xidmətləriniz də oxucuların yaddaşında dərin izlər buraxmışdır. Siz Azərbaycanın Xalq artisti, ilahi qüdrətdən gələn bir səslə Azərbaycan muğamlarını və xalq mahnılarını ifa edən xanəndə Qədir Rüstəmovla "Atüstü söhbət" əsəriniz ədəbi müsahibə janrına yeni nəfəs vermişdir. Məhz janrdan novatoristifadə məharəti sonralar sizə bədii-publisistik üslubda "Palıd toxumu", "Bəhanə" kimi iri həcmli romanlarınız, "Kasib" başlıqlı satira və yumor silsiləsini yaratmağa imkan vermişdir.

Siz dünya ədəbiyyatından bir qism örnəkləri, o cümlədən Azərbaycanın dostu, "Drujba narodov" jurnalının baş redaktoru A.Ebonoidzenin "İki ay kənddə və ya imeretsayağı evlənmə" romanını doğma dilimizə çevirmisiniz.

Hörmətli Seyran müəllim!

Siz istedadlı Azərbaycan ədibi olaraq həm respublikada, həm də dünya səviyyəsində bir çox dövlətlərdə (Fransa, ABŞ, İngiltərə, İran, Türkiyə, İtaliya, İspaniya...) ölkəmizi təmsil etmiş, konfrans və simpoziomlara qatılmısınız.Müstəqillik illərində kütləvi informasiya vasitələrinə verdiyiniz beş mindən artıq intervünüzlə Azərbaycan həqiqətlərinin carçısı rolunda çıxış etmisiniz.

75 yaş ömrün müdrik çağıdır. Siz yaşınızın bütün mərhələlərində Azərbaycanda təzahür edən ictimai, mədəni, ədəbi proseslərə həssas yanaşmış, gənc yazarlara kömək məqsədi ilə ədəbi birliklərə rəhbərlik etmiş, ölkəmizin həyatında baş verən önəmli hadisələrə kreativ şəkildə - yazılı və internet mətbuat məkanında mövqeyinizi bildirmisiniz. Hazırda ustad ədib olaraq AYB-də çalışırsınız; "Azərbaycan" jurnalı redaksiya heyətinin üzvüsünüz. Yaradıcı əməyiniz yüksək qiymətləndirilmişdir; 2002-ci ilin ədəbi yekunlarına görə "Nekroloq" romanınız AYB-nin Yusif Səmədoğlu adına "İlin ən yaxşı romanı" mükafatına layiq görülmüşdür.

Hörmətli Seyran müəllim!

Əsərləriniz, ədəbi tərcümeyi-halınız deməyə əsas verir ki, sizin yaradıcılığınız müasir Azərbaycan ədəbiyyatının ən dəyərli fəsillərindən biridir. Sizi ədədəbiyyat biliciləri, qələm dostlarınız, Azərbaycan oxucusu yüksək qiymətləndirir. Sizə bundan sonra da ilhamlı yaradıcılıq ovqatı, dəyərli əsərlər, möhkəm can sağlığı, ailə xoşbəxtliyi arzulayırıq.75 yaşınız mübarək olsun!

Azərbaycan Yazıçılar Birliyi

Əsas problem inflyasiyanın səviyyəsidir

Mərkəzi Bank vəziyyəti sabit saxlamaq üçün humanitar siyasət həyata keçirməyə çalışacaqdır

Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyəti uçot dərəcəsinin sabit saxlanılması haqqında qərar qəbul edib.

Bu barədə AMB-nin məlumatında deyilir ki, uçot dərəcəsi 6,25 faizdə, faiz dəhlizinin aşağı həddi 5,75 faiz, faiz dəhlizinin yuxarı həddi isə 6,75 faiz səviyyəsində qalıb.

İqtisadçı-ekspert Rəşad Həsənov qərar barədə fikirlərini "Şərq"ə bildirərkən qeyd edib ki, Mərkəzi Bank mümkün olduğu qədər bu istiqamətdə humanitar addımlar atmağa çalışır: "Neftin qiyməti və digər amillərin uçot dərəcəsinin aşağı düşməsinə zəmin yaratmasına baxmayaraq, uçot dərəcəsinin sabit saxlanılması ehtimalı var idi. Bu sahədə digər problem isə inflyasiya səviyyəsidir. Rəsmi inflyasiya səviyyəsi 4 faiz ətrafında qeyd olunsa da, qeyri-rəsmi olaraq məlumdur ki, 8-10 faiz ətrafında inflyasiya gedir. Belə şərtlər daxilində hökumət uçot dərəcəsinin aşağı düşməsi barədə qərar qəbul etdiyi halda, bu, bazarda pul kütləsinin artması və dolayısı ilə inflyasiya təzyiqlərinin daha da kəskinləşməsi anlamına gələ bilər. Mərkəzi Bank indi mümkün qədər inflyasiya hədəfi istiqamətində humanitar siyasət həyata keçirməyə çalışacaqdır. Bu da hazırkı şərtlər daxilində uçot dərəcəsinin aşağı düşməsinin qarşısını alan əsas faktorlardan biridir".

Aytac Ali

Ən azı 1 il sahibkarlar əsassız yoxlanmayacaq

Prezident İlham Əliyevin fərmanına əsasən, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilib.

Dəyişikliyə əsasən, Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar 2022-ci il yanvarın 1-dək dayandırılıb.

Yeni fərman barədə fikirlərini "Şərq"lə bölüşən iqtisadçı-ekspert Natiq Cəfərli vurğulayıb ki, sahibkarlığa əvvəlki dönəmlərdə də dəstək xarakterli addımlar atılıb. Sadəcə olaraq bu fərmana əsasən, sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması fəaliyyəti daha bir il uzadılır: "Bu fəaliyyət dövründə sahibkarlıq subyektlərinin əsassız yoxlamalarını xeyli dərəcədə azaltmaq mümkün olub. Yəni əvvəllər istənilən sahibkarlıq subyektinə, şirkətlərə, özəl sektorun nümayəndələrinə heç bir əsas gətirmədən də dövlət orqanları tərəfindən yoxlamalar təyin etmək mümkün idi. Bu monopoliya elan edildikdən sonra, yəni dondurulduqdan sonra kifayət qədər iş adamları ilə sahibkarların da zamanın lüzumsuz yoxlamalarla alınmasının qarşısı xeyli dərəcədə azalıb. Bu, pandemiyadan əziyyət çəkən ölkə iqtisadiyyatı və sahibkarlıq subyektləri üçün pozitiv qərar idi. İndi bu, bir illik uzadılır. Təbii ki, bunun özü də pozitiv yanaşmadır. Ən azından bir il ərzində də əsassız yoxlamaların olmayacağını, yaxud da ən azından minimuma enəcəyini gözləmək mümkündür".

N.Cəfərli əlavə edib ki, ola bilər ki, növbəti addım kimi ümumiyyətlə, qanunvericilikdə müəyyən dəyişikliklər də edilsin: "Yəni sahibkarlıq subyektlərinin yoxlanılması üçün əsasların nədən ibarət olduğu daha dəqiq yazılsın. Düzdür, indi prezidentin fərmanı ilə bu tənzimləndi, yəni uzadıldı. Amma ola bilər ki, gələcəkdə qanuna salınsın. Hesab edirəm ki, qanunvericilik müstəvisində sahibkarların lüzumsuz yoxlamalardan qorunması ilə bağlı bir daha dərin çalışmalara ehtiyac var".

Aynurə

Yarasından bir kəlmə demədi...

Yarasını sarıyıb, yenidən döyüşlərə atılıb və şəhid olub

Bizim bir ölən, yüz doğulan igidlərimiz 44 günlük döyüşlərdə Ermənistanın silahlı qüvvələrini məhv etdilər. Beləliklə, həm də ərazi bütövlüyümüzü təmin edib adlarını tarixə yazdılar. Həmin cəsur oğullardan biri də 1999-cu il təvəllüdlü Tərlan Quliyevdir.

Tərlan 2006-cı ildə kənd orta məktəbinə daxil olub və 2017-ci ildə oranı bitirib. 2018-ci ildə N saylı hərbi hissədə vətən borcunu yerinə yetirib. Ardınca Xüsusi Təyinatlı Qoşunların altı aylıq müvafiq kursunda iştirak etdikdən sonra Bakıda gizir rütbəsində müddətdən artıq hərbi xidmətə başlayıb.

Və atası Mayılxan bəyin "Şərq"ə dediyi kimi, bu yol onu ən yüksək zirvəyə aparıb: "Oğlum ilk günlərdən etibarən Qarabağ müharibəsində iştirak etdi. Füzuli, Murov, Kəlbəcər, Hadrut, Xocavənd uğrunda döyüşüb. Sonuncu dəfə oktyabrın 14-də danışmışdıq.

Dedi ki, hər şey yaxşıdır, məndən narahat olmayın. Bizlə danışandan sonra yoldaşlarından biri şəhid olub və neytral ərazidə qalıb. Tərlan onu çıxaranda yaralanıb.

Lakin bu barədə bizə bircə kəlmə demədən yarasını sarıyıb, yenidən döyüşlərə atılıb. Oğlum oktyabrın 16-da Xocavənd istiqamətində qəhrəmancasına şəhid olub. Allah bütün şəhidlərə rəhmət eləsin!".

Kənan

Nazir biganə qalmadı

Şagirdi döyən müəllim əmrlə işdən çıxarıldı

Bakıda Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbində direktor müavininin şagirdi döyməsi ilə bağlı məlumat yayılmışdı.

Məlumata görə, direktor müavini olan 55 yaşlı Qabil Qasımov adlı müəllimlə bağlı Nərimanov rayon 16-cı Polis Bölməsində araşdırmalara başlanılmışdı.

Təhsil Nazirliyindən Sputnik Azərbaycan-ın sorğusuna cavab olaraq bildirilib ki, qeyd olunan məsələ araşdırılıb, nazirin müvafiq əmri ilə 5 nömrəli Respublika xüsusi internat məktəbinin direktor müavini işdən azad olunub, direktoruna isə töhmət verilib.

Köməksiz qalan azyaşlı xilas edildi

Sabunçu rayonunda azyaşlı mənzildə bağlı qapı arxasında köməksiz vəziyyətdə qalıb.

Bu barədə "Şərq"ə Fövqəladə Hallar Nazirliyindən (FHN) məlumat verilib.

Bildirilib ki, bununla bağlı Nazirliyin "112" qaynar telefon xəttinə məlumat daxil olub. Çağırış ünvanına cəlb olunan Xüsusi Riskli Xilasetmə Xidmətinin müvafiq xilasetmə qüvvələri azyaşlını xilas edib və aidiyyəti üzrə təhvil veriblər.

Masallıda 11 yaşlı qız hamam otağında ölü tapıldı

Masallı rayonunda bədbəxt hadisə baş verib.

"Report"un Cənub Mərkəzinin verdiyi xəbərə görə, hadisə Masallı rayonunun Ərkivan qəsəbəsində qeydə alınıb

Belə ki, 2010-cu il təvəllüdlü qəsəbə sakini Zəhra Tofiq qızı Məmmədovanın cansız bədəni hamam otağında aşkar edilib.

Onun yıxılaraq travma aldığı və bu səbəbdən dünyasını dəyişdiyi ehtimal olunur. Faktla bağlı rayon Prokurorluğu tərəfindən araşdırma aparılır.

Daha əvvəlki zaman deyil

Köhnə tarixlə saxta diplom alanlar bilməlidir ki, diplomları tanınmayacaq

Təhsildə Keyfiyyət Təminatı Agentliyi diplomları tanınmayan ali təhsil müəssisələrinin siyahısını təqdim edib. Qeyd edilir ki, Agentliyə müraciət edən vətəndaşlar arasında xarici ali təhsil müəssisələrinin lisenziyasız fəaliyyət göstərən Bakı filiallarında təhsil alan 385 müraciətçinin diplomları üzrə əldə olunan ixtisasları ölkə ərazisində tanınmayıb.

"İstənilən şəxs vahid sistemə daxil olmaqla, portaldan məlumat əldə edə bilər; bu universitetin fəaliyyətinə icazə varmı, tələbə qəbuluna lisenziyası varmı və diplomları tanınırmı"

Agentlikdən "Report"a verilən məlumata görə, bu müraciətlərin əhəmiyyətli hissəsi adları aşağıda qeyd olunan Rusiya Federasiyasının Azərbaycan ərazisində filialları fəaliyyət göstərən ali təhsil müəssisələrinə məxsusdur:

- Dağıstan Dövlət Universiteti;
- Cənubi Rusiya Humanitar İnstitutu;
- Sankt Peterburq Xarici İqtisadi Əlaqələr və Hüquq İnstitutu;
- Rusiya Dövlət Sosial Universiteti.

Yalnız aşağıda adları qeyd edilən və Azərbaycan Respublikası ərazisində filialları lisenziyalı fəaliyyət göstərən xarici ali təhsil müəssisələri tərəfindən verilən diplomlar üzrə əldə edilən ixtisaslar ölkəmizdə tanınır:

- Moskva Dövlət Açıq Universiteti (19.11.2007-ci il - 01.09.2010-cu illər ərzində);
- Moskva Əmək və Sosial Münasibətlər Akademiyası (1999-2005-ci illər ərzində);
- V.Lomonosov adına Moskva Dövlət Universiteti (27.02.2009-cu ildən etibarən);
- İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti (15.05.2015-ci ildən etibarən).

Əlavə olaraq, vətəndaşların Təhsildə Keyfiyyət Təminatı Agentliyinin internet səhifəsinin (www.tkta.edu.az) "Mütəmadi verilən suallar" bölməsi ilə tanış olmaları tövsiyə olunur.

Agentlik diplomları tanınmayan ali təhsil müəssisələrinin adlarını açıqladı, amma bir neçə il bu ali məktəblərdə təhsil almış və buna görə ödəniş etmiş tələbənin "sənin diplomun tanınmır" qərarını eşitməsi etiraf edək ki, böyük xəyal qırıqlığıdır. Buna görə kim məsuliyyət daşıyır? Valideynmi, ali məktəbin rəhbərliyi, yoxsa qanunsuzluğa zamanında göz yumanlar?

Mövcud durumu "Şərq"ə şərh edən təhsil eksperti Kamran Əsədov qeyd etdi ki, bir neçə il öncəyə qədər diplomların tanınması məsələsində qeyri-şəffaflıq vardı və bir sıra ali məktəblər də vəziyyətdən sui-istifadə edərək qeyri-qanunu tələbə qəbulu həyata keçirirdi:

- 2013-cü ilədək bu vəziyyətə göz yumulub. Universitetlər və ya filialların hərəsi bir bina tutmuşdu, imtahandan kənar qəbul həyata keçirirdilər. Təhsil Nazirliyinin ovaxtkı rəhbərliyi, rəsmiləri bu universitetlərdə görüşlər keçirir, onları ziyarət edir, ali məktəb rəhbərləri ilə fotolar çəkdirirdi. Vətəndaşlarda da belə fikir formalaşırdı ki, bu ali məktəblər yaxşıdır, etibarlıdır. Ona görə də Azərbaycan ali məktəblərinə daxil ola bilməyənlər, üz tuturdu xarici ölkələrin burdakı filiallarına. Əlbəttə, burada əhalinin "diplom sevgisi" də böyük rol oynayırdı. "Təki övladımın diplomu olsun", düşüncəsi ilə hərəkət edən valideynlər tələb olunan ödənişi edir və övladının ali məktəb tələbəsi olmağıyla qürurlanırdı. Təbii ki, məsuliyyət qanunsuz tələbə qəbuluna göz yumanlardadır. Sonradan diplomları tanınmayan universitetlərin tələbə qəbulu üçün lisenziyası olmayıb. Onların fəaliyyət istiqaməti elmi-tədqiqat, elmi təcrübələr və sair, tələbə qəbulundan kənar istiqamətdə təsdiqlənmişdi. Lakin onlar qanunsuz tələbə qəbulu həyata keçirirdilər. Tələbə qəbulu üçün lisenziyası olanlarsa plandan artıq tələbə qəbulu həyata keçirirdi. Çünki tələbə qəbulu üçün lisenziyadan əlavə həm də plan yerləri tələb olunur. Ancaq onların belə bir icazəsi yox idi. Köhnə tarixlə diplom alanlar bilməlidir ki, diplomları tanınmaycaq. Onların fəaliyyəti mövcud Azərbaycan qanunları ilə üst-üstə düşmür.

K.Əsədov bildirdi ki, 2016-cı ildən etibarən vahid elektron baza yaradılıb. Lisenziya, akkreditasiya ilə bağlı bütün məlumatlar elektron bazada yerləşdirilib:

- Azərbaycanda lisenziyasız fəaliyyətlə bağlı problem yoxdur artıq. Problem xarici ölkə ali təhsil müəssisələri ilə bağlı ola bilər. Lakin vahid portal mövcuddur. Avropa ali təhsil müəssisələri ilə bağlı da vahid Avropa sistemi var. Bu gün istənilən şəxs vahid sistemə daxil olmaqla, portaldan məlumat əldə edə bilər; bu universitetin fəaliyyətinə icazə varmı, tələbə qəbuluna lisenziyası varmı və diplomları tanınırmı. Valideynlər də diqqətli olmalı və məlumatları əldə etməlidirlər. Eyni zamanda məlumdur ki, Azərbaycanda vahid tələbə-məzun sistemi fəaliyyət göstərir və ondan kənar ölkə daxilində tələbə qəbulu aparıla bilməz.

Məlahət Rzayeva

Bu dəfə əsgərlər cücə-plov yeyəcək

Səmayə nənə bütün hazırlıqlarını görüb

Ağdamlı Səmayə nənə yenə qollarını çırmalayıb əsgərlərimizə bayram sovqatı hazırlayır. Ötən dəfə onunla danışanda bu il Qələbə ilə qeyd etdiyimiz əziz Novruz bayramında əsgərlərimiz üçün Ağdam məscidinin tam qarşısında ocaq qalayıb səməni halvası bişirməyə niyyətləndiyini demişdi və Müdafiə Nazirliyindən xahiş edirdi ki, ona bu imkanı yaratsınlar. Məşədi İbad demiş "o olmasın, bu olsun".

Səməni halvasını Ağdam məscidinin önündə bişirmək mümkün olmasa da, Səmayə nənə Bərdədə müvəqqəti məskunlaşdığı evində səməni halvası bişirib, qohuma-qonşuya paylayıb. Əsgərlərin payına da əl vurmayıb. Səməni halvasının 3 kiloqramını əsgərlər üçün saxlayır. Onunla əlaqə yaratdıq, bayramını təbrik etdik. Ağbirçək, el anası xeyir-duasını aldıq. **Səmayə nənə dedi ki, ilaxır çərşənbədə Azad Azərbaycan Televiziyasında qonaq olub, onu binanın önündə televiziyanın 100-ə yaxın əməkdaşı təmtəraqla qarşılayıb. İndi isə qarşıdakı bayram günlərində igid əsgərlərimizin görüşünə gedəcəyi vaxtı gözləyir:**

"Mən balalarıma 200 illik reseptlə hazırladığım səməni halvası da aparacam"

- Bu gün-sabah əsgərlərimizin yanına gedəcəm. Onlar üçün niyyət edib bişirdiyim səməni halvasını da aparacam. Kim o halvadan daddısa, dadınatamına heyran oldu. Mən onu 200 illik reseptlə hazırlamışam. Tarixdə hələ belə səməni halvası olmayıb bəlkə də. O halvanı dadlandıran həm də igid balalarımın qazandığı qələbədi. Mənim yurdum ki, azad olundu, könüllərindən nə keçsə, əsgər balalara hazırlayaram. Bu dəfə əsgərlərimizə plov bişirəcəm. Cücə-plov. İndidən tədarükümü görmüşəm, ehtiyatımı hazırlamışam. Nə vaxt xəbər versələr ki, gedirik, hər şey hazırdı. Bircə qalır orda düyünü süzüb dəmə qoymaq. Hamının bayramını təbrik edirəm. Allah dövlətimizi qorusun, Prezidentimizə can sağlığı versin. Allah məni sayanları saysın.

Məlahət Rzayeva

Bayram günlərində qatarlar da işləməyəcək

Bakı-Pirşağı-Sumqayıt elektrik qatarları 20-28 mart tarixlərində hərəkətdə olmayacaq.

Bu barədə "Azərbaycan Dəmir Yolları" QSC məlumat yayıb.

Bildirilib ki, 29 mart tarixindən etibarən cari cədvəl üzrə hərəkət bərpa olunacaq.

Qeyd edək ki, Nazirlər Kabinetinin müvafiqə qərarına əsasən, bayram günlərində digər ictimai nəqliyyat vasitələrinin də hərəkəti dayandırılacaq.

Daha 15 erməni hərbçinin meyiti Ermənistana təhvil verilib

Meyitlərin qalıqları Füzuli rayonu ərazisində tapılıb

Qarabağda müharibədə ölən 15 erməni hərbçinin meyitinin qalıqları Ermənistana təhvil verilib.

"Sputnik Armenia"ya xəbər verir ki, erməni hərbçilərin meyitlərinin qalıqları Füzuli rayonu ərazisində tapılıb.

Qeyd olunub ki, 2020-ci il noyabrın 13-dən bəri Ermənistan tərəfi ümumilikdə 1 518 hərbçinin meyitinin qalıqlarını hərbi əməliyyatlar aparılan ərazilərdən toplayıb.

Xatırladaq ki, bundan əvvəl də Azərbaycan Ermənistan tərəfinə erməni hərbçilərinin meyitlərinin qalıqlarını təhvil verib.

Daha 879 nəfər koronavirusa yoluxub

334 nəfər müalicə olunaraq sağalıb, 11 nəfər vəfat edib

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 879 yeni yoluxma faktı qeydə alınıb, 334 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 11 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 244 303 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 232 228 nəfər müalicə olunaraq sağalıb, 3 325 nəfər vəfat edib, aktiv xəstə sayı 8 750 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 9 776, ötən müddət ərzində isə ümumilikdə 2 756 457 test aparılıb.

Dünyanın heç bir yerində təyyarə bileti bu qədər bahalı deyil

AZAL-ın inhisarçı mövqeyi, "bazara" başqa "oyunçu"nu buraxmaq istəməməsi paradoksal vəziyyət yaradır

Son vaxtlar AZAL-ın qiymətlərində kəskin bahalaşma müşahidə olunur. Belə ki, MDB ölkələrinə uçuş qiymətləri illik müqayisədə fevralda 2,56 dəfə, digər ölkələrə isə 2,18 dəfə artıb. Bu ilin fevralında təyyarə biletləri MDB ölkələrinə bir gediş üzrə orta hesabla 847,5 manat, digər ölkələrə 783,55 manat olub. Amma yanvarda MDB ölkələrinə təyyarə biletləri orta hesabla 816,7 manat, digər ölkələrə 758,7 manat idi.

Verilən məlumata görə, qiymətlərin bu qədər yüksəlməsinin səbəbi COVİD-19 ilə bağlı xaricə uçuşların azalmasıdır. Səfərlərin sayının azalması bir sərnişinin daşınma xərcini, yəni maya dəyərini artırdığından uçuş biletlərinin də bahalaşmasına səbəb olub.

Biletlərin bahalaşmasına COVID-19 testi ilə bağlı xərclərin yaranması da təsir edib.

Xaricə uçuş həyata keçirənlər hökmən koronavirus testindən keçməlidir. Aviasiya şirkətləri test xərclərini də biletin qiymətinə əlavə edir. Lakin mütəxəssislər istənilən halda qiymətlərin bu qədər artmasının iqtisadi məntiqinin olmadığını bildirirlər.

İqtisadçı-ekspert Natiq Cəfərli də "Şərq"ə açıqlamasında həmin qənaətdə olduğunu bildirdi. O, məsələnin mahiyyətini belə izah etdi:

"Düzdür, dünyada da aviauçuşlarda qiymət artımı var. Amma heç bir ölkədə bu qədər kəskin deyil. Bahalaşmanın iqtisadi əsası yoxdur. Sadəcə, AZAL-ın inhisarçı mövqeyi, "bazara" başqa "oyunçu"nu buraxmaq istəməməsi bu cür paradoksal vəziyyət yaradır.

Təəssüf ki, bir neçə başqa şirkət də AZAL-ın diktəsi ilə fəaliyyət göstərir.

Çıxış yolu xarici şirkətlərin də fəaliyyətinə icazə verməkdir. Bu zaman rəqabətli mühit yaranacaq və qiymətlər tənzimlənəcək".

Kənan

Beynəlxalq reaksiyalardan qorxmaq lazım deyil

"HDP-nin fəaliyyəti Türkiyənin parçalanmasına hesablanıb"

Türkiyədə Xalqların Demokratik Partiyasının (HDP) fəaliyyətinin dayandırılması üçün Konstitusiya Məhkəməsinə müraciət ünvanlanıb. İttiham aktı Ali Məhkəmənin Cümhuriyyət baş prokuroru Bekir Şahin tərəfindən göndərilib.

HDP öz bəyanatları və hərəkətləri ilə dövlətin bütünlüyünü pozmağı, milləti qarşıdurmaya sövq etməkdə və terrora açıq dəstək verməkdə ittiham olunur. Məlumat üçün bildirək ki, partiya barəsində xeyli vaxt idi ki, istintaq davam edirdi. Partiya sədri Səlahəddin Dəmirdaş və partiyadan deputat seçilmiş şəxslərin bəziləri hazırda həbsdədir. HDP-nin qapadılması məsələsi Türkiyənin bir nömrəli müzakirə mövzusuna çevrilib. Cümhuriyyət Xalq Partiyası başda olmaqla ölkə müxalifəti buna qarşı çıxır, hər hansı siyasi təşkilatın bağlanmasını doğru saymırlar. Lakin müraciəti dəstəkləyənlər düşünürlər ki, PKK-ya qol-qanad verən istənilən quruma qarşı çox sərt addımlar atılmalıdır.

"Türkiyənin hüquq sisteminin reaksiyası çox sərt olmalıdır. Partiya birdəfəlik bağlanmalı, fəaliyyəti qadağan olunmalıdır"

Politoloq Natiq Miri "Şərq"ə açıqlamasında vurğulayıb ki, belə məsələlərdə tənqidlərə fikir vermək lazım deyil. Siyasi şərhçinin sözlərinə görə, etirazlar keçici xarakter daşıyır: "Daxildən və xaricdən olan tənqidlər, təzyiqlər Türkiyə üçün ciddi problem yaratmayacaq. Xalqların Demokratik Partiyası PKK-nın siyasi qanadı kimi fəaliyyət göstərir. Çox təəssüf ki, zamanında buraxılan səhvlərə görə terrorçu ünsürlər Türkiyənin daxilinə, siyasətinə, ən əsası isə parlamentə sıza bildilər. Hətta bu yolla dövlətdən maliyyə alaraq terror təşkilatına yardım da etdilər. HDP-nin fəaliyyəti Türkiyənin parçalanmasına hesablanıb. Türkiyənin hüquq sisteminin reaksiyası çox sərt olmalıdır. Partiya birdəfəlik bağlanmalı, fəaliyyəti qadağan olunmalıdır".

N.Miri vurğulayıb ki, ölkədə buna qarşı çıxanlar koalisiya hökumətləri dövründə ard-arda bağlanmış partiyalardan xəbərsiz deyillər: "O zaman səs çıxarmayanlar, hətta dəstək verənlər PKK-nın siyasi sözçüsü rolunda çıxış edən, hər addımı Türkiyənin bütövlüyünə təhdid sayılan bir təşkilatın qapadılmasına hansı haqla etiraz edirlər?! Beynəlxalq reaksiyalardan qorxmaq lazım deyil. Avropanın istənilən inkişaf etmiş dövlətində ölkənin parçalanmasına yönəlik fəaliyyətə qətiyyən imkan verilməz. Terror təşkilatları ilə əlaqəsi sübut edilən qurumun fəaliyyətinə dərhal xitam verilib. Ancaq maraqlıdır ki, bənzər hadisə Türkiyədə baş verdikdə prosesə fərqli rakursdan yanaşılır. Məsələ siyasiləşir və başqa istiqamətə çəkilir. Türkiyənin parçalanmasına, dağıdılmasına cəhd edən, terrorla əlaqəsi olan təşkilatın sərbəst fəaliyyətinə imkan vermək yolverilməzdir. Buna qarşı çıxanların ürkək səsləri müvəqqəti və əhəmiyyətsizdir".

İsmayıl Qocayev

Yerini tapdılar

20 il həbs yatan qanuni oğru yenidən saxlanılıb

44 yaşlı Rusiya vətəndaşı, Mamuka Khonski adlı qanuni oğru Odessada saxlanılıb.

Bu barədə "Şərq" "Rambler.ru"ya istinadən xəbər verir.

Bildirilir ki, informasiyanı Ukrayna Milli Polisinin mətbuat xidməti yayıb.

Departamentdən verilən məlumata görə, Mamuka Khonski Ukrayna ərazisində qalır, müvəqqəti olaraq Odessada yaşayır. Hüquq-mühafizə orqanının əməkdaşları onun yerini müəyyənləşdirməyi bacarıblar.

Qeyd edək ki, o, 2005-ci ildə "qanuni oğru" statusunu alıb. Ağır cinayətlər törətdiyinə görə iyirmi il həbsdə yatıb. Keçən ilin oktyabrında isə sərbəst buraxılıb.

Kənan

BMT-dən SOS...

Qarşıdan qlobal aclıq gəlir

BMT-nin Qida və Kənd Təsərrüfatı Təşkilatının yaydığı hesabata görə, dünya əhalisi böyük faciə ilə üz-üzədir.

Belə ki, təbii fəlakətlər, iqlim dəyişikliyi, əkinçilik problemləri və koronavirus pandemiyasının mənfi nəticələri bəşəriyyəti misli görünməmiş aclıqla təhdid edir.

Bu barədə "Şərq" "Rambler.ru"ya istinadən xəbər verir. Məlumata görə, Afrika və Şimali Afrika, Latın Amerikası və Asiya ölkələri, həmçinin Karib dənizinin kiçik ada dövlətləri xüsusilə təsirlənəcək.

Qurum qida çatışmazlığı təhlükəsinin tarixdə ilk dəfə müşahidə edildiyini və bir neçə onilliklər ərzində davam edə biləcəyini iddia edir. Hesabatda, həmçinin məhsulun azalmasının əsas səbəblərinin quraqlıq, daşqınlar, meşə yanğınları, fırtına və kənd təsərrüfatı bitkilərinin xəstəlikləri olduğu göstərilir.

Kənan

Lavrov: Rusiya ABŞ-la münasibətlərin pisləşməsinə hazırdır

Rusiya Birləşmiş Ştatlarla münasibətlərdə vəziyyətin çətin inkişafına hazırdır. Sputnik Azərbaycan "RİA Novosti"-yə istinadən xəbər verir ki, bunu Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov bildirib.

"Yəni vəziyyət (ABŞ-la münasibətlərdə - red.) həqiqətən də asan deyil, lakin biz hadisələrin bu cür inkişafına hazırıq", - deyə Lavrov Qorçakov Fondunun Qəyyumlar Şurasının iclasında bildirib.

O, bir daha "Rusiya ABŞ-la "yalnız bizə maraqlı olan sahələrdə və yalnız bizə sərfəli olan şərtlərdə" iş birliyinə hazırdır" mövqeyini xatırladıb.

Lavrov vurğulayıb ki, hazırkı şərtlərdə vətəndaş cəmiyyətləri xətti ilə beynəlxalq kontaktların rolu artır.

Qeyd edək ki, bu günlərdə ABŞ prezidenti Co Baydenin Rusiya prezidenti Vladimir Putinlə bağlı söylədiyi fikirlər bütün dünyada böyük əkssəda doğurub.

Bayden bildirmişdi ki, Vladimir Putin seçkilərə müdaxilə ilə bağlı cavab verməli olacaq. KİV-də, həmçinin qeyd olunmuşdu ki, ABŞ prezidenti ABC telekanalına müsahibəsində Rusiya liderini qatil adlandırıb. Buna cavab olaraq, Putin Baydenə sağlamlıq arzulayıb və onu canlı yayımda teledebata çağırıb.

Avropalı qonaq Tbilisidən əliboş qayıtdı

Anlaşa bilməyən siyasi qütbləri daha gərgin günlər gözləyir

İndi ölkədə həm iqtidar, həm də müxalifət öz işini Saakaşvili üzərində qurmağa çalışır

Gürcüstanda siyasi böhranın aradan qaldırılması üçün vasitəçi olan Aİ-nin xüsusi nümayəndəsi Kristian Danielson heç bir nəticə əldə etmədən Tbilisini tərk edir. Onun sözlərinə görə, bir həftə ərzində aparılan danışıqlar uğursuz nəticələnib. Tərəflər nəinki heç bir razılaşma imzalamayıb, həmçinin əsas məsələlər üzrə mövqelərini yaxınlaşdırmağa belə müvəffəq olmayıblar.

Danielson ötən gün 9 saatdan çox davam edən görüşdən sonra bildirib ki, bəzi məsələlərlə bağlı konsensus əldə etmək mümkün olmayıb. Dialoqda müxalifətin əsas tələblərindən biri Vahid Milli Hərəkat Partiyasının həbsdə olan sədri Nika Meliyanın azadlığa buraxılması olub. Müxalifətçilər danışıqların uğursuzluqla yekunlaşmasına görə hakim "Gürcü arzusu"nu günahlandırıb. "Gürcü arzusu"nda isə hesab edirlər ki, müxalifət hakimiyyətlə razılığın əldə edilməsinə hazır deyil. **Qonşu ölkədəki gərginliyi "Şərq"ə dəyərləndirən politoloq Azər Rəşidoğlu vurğulayıb ki, Gürcüstanda daxili siyasət daima gərginliklə müşayiət edilib. Lakin əksər hallarda gürcülər ortaq məxrəcə gələ biliblər:** "Bu gün Gürcüstanda Saakaşvilidən başqa güclü siyasi lider yoxdur. Elə buna görə də, həm iqtidar, həm də müxalifət öz işini Saakaşvili üzərində qurmağa çalışır. İqtidar ölkənin başlıca problemlərində sabiq prezidenti ittiham edir. Müxalifət isə Gürcüstanın ən yaxşı günlərinin onun vaxtına təsadüf etdiyini deyir. Bütün bu müzakirələr Saakaşvilinin hakimiyyətə qayıda bilmək ehtimalını gücləndirir. Sabiq prezident ölkəyə qayıdarsa, Gürcüstanda gərginlik arta bilər. Ən əsası isə Gürcüstanın Rusiya ilə münasibətləri daha da korlanar. Ancaq unutmaq olmaz ki, Mixail Saakaşvili dövrünün bitməsi Moskva-Tiflis münasibətlərini keçmişdəki kimi "isti məcraya" qaytara bilmədi".

A.Rəşidoğlunun qənaətincə, bütün bunlara baxmayaraq, Qərbin Gürcüstanda həyata keçirdiyi "Saakaşvili layihəsi" uğurlu oldu: "Qısa müddət ərzində ölkədəki korrupsiyaya son qoyan Saakaşvili, işsizlik problemini həll etməklə yanaşı, dövlətin uzun illərdən bəri əhaliyə olan əməkhaqqı borclarını ödəyə bildi. Bir sözlə, Saakaşvili bir örnək idi. Qərblə inteqrasiyanın üstünlüklərini MDB məkanına göstərmək üçün həyata keçirilən bir layihə idi. Odur ki, Qərbin Gürcüstanda özünə yeni dəstək axtarışında olduğunu ehtimal edə bilərik. Vahid Milli Hərəkat Partiyasının həbsdə olan sədri Nika Meliyanın azadlığa buraxılması da məhz Qərbin təzyiqi ilə baş verdi. Bu baxımdan, Gürcüstanda milli birliyin əldə edilməsini ehtimal etmək çətindir".

İsmayıl Qocayev

Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

Köşə yazılarının seyrəlməsinin səbəbləri çoxdur

Oxucu artıq mətni böyük olan yazıları oxumağı sevmir, artıq multimedia dövrüdür

Köşə yazıları müasir jurnalistikanın cəlbedici və mühüm sahələrindən biridir. Qəzet və saytların künc sütunlarında dərc olunan, siyasi, iqtisadi, ədəbi, sosial və digər ictimai problemlərlə bağlı müəllifin şəxsi fikirlərini ifadə edən yazılar "köşə" sayılır. Köşələr adətən günü və ya həftəni əks etdirir. Minlərlə insan köşə yazılarının əsasında özlərində siyasi və ictimai fikir formalaşdırırdılar.

Məhz bu baxımdan, dünya mediasında köşə yazarları yüksək qiymətləndirilir. Müəyyən sahədə ixtisaslaşan və ekspertə çevrilən köşə yazarları 2-4 min işarəlik yazılarında bəzən bütöv bir kitabda deyildiyindən daha çox fikir deyə bilərlər. Ekspertlərə görə, köşə yazmaq, əslində olduqca çətin və məsuliyyətli işdir. Bizim ölkədə isə vəziyyət fərqlidir. Düzdür, bizdə "mətbuatın onurğa sütunu" sayılan köşə yazarları var. Amma köşə yazılarının sayı əvvəlki qədər çox deyil. Bu silsilədən olan yazılar azalıb. Bəs, köşə yazılarının sayının azalmasının səbəbi nədir?

"Azxeber.com" saytının baş redaktoru Hacıbəy Heydərli "Şərq"ə açıqlamasında bildirib ki, çox təəssüf ki, son dövrlər Azərbaycan mediasında köşə yazılarına çox rast gəlinmir. H.Heydərli düşünür ki, bunun da obyektiv və subyektiv səbəbləri var: "İnternet media olmadığı dönəmdə insanlar əlavə şərhə, müəllif yazısına, alternativ fikrə daha çox maraq göstərirdi. Qəzetin ən gözəl yerində köşə yazılarına yer ayrılırdı. Hətta köşə yazarları gündəmə təsir gücünə malik idilər. Ancaq təəssüf ki, internet mediada köşə yazılarına çox az hallarda rast gəlirik".

H.Heydərli əlavə edib ki, internetdə köşə yazarları funksiyasını bloqlar yerinə yetirir: "Bloq yazıları əslində köşə yazılarının onlayn versiyasıdır, ancaq oxucu kütləsi tərəfindən sevilərək oxunan köşə yazarları çox azdır. Məncə, xəbər portalları və informasiya agentlikləri daha çox operativliyə qaçdıqları üçün bu tip yazıları ikinci plana keçiriblər. Həm də yazarlar bu gün hansısa sayta köşə yazısı yazmaqdansa, feysbukda status yazmağı üstün tuturlar. Özü də qısa və lakonik şəkildə. Çünki oxucu uzun yazıları oxumağı sevmir, artıq multimedia dövrüdür. İndiki zamanda fikri qısa və konkret ifadə etmək lazımdır. Dünyanın ən məşhur sosial şəbəkələrindən olan "tvitter" maksimum 156 şrift yazıya imkan yaradır. Dünyanın ən məşhur yazarları, siyasətçiləri bu səbəbdən qısa yazı ilə kifayətlənir. Azərbaycanda da bu tendensiya mövcuddur, uzun və yorucu yazıların kütləsi yox dərəcəsindədir. Köşə yazıları da qısa və lakonik olarsa, bəlkə də uğurlu olar. Ancaq bizdə yazısına və fikrinə rəğbət bəslənən yazarlar da çox təəssüf ki, yalnız status yazmaqla kifayətlənirlər. Bəlkə də internet media portalları yaxşı qonorar versə, həmin yazarları cəlb edə bilər. Bu baxımdan düşünürəm ki, sosial şəbəkələrin sayəsində bu gün hər kəs yazardır, hər kəs köşə yazır. Yazan çox olan yerdə də oxuyan az olur və bu səbəbdən köşələr ikinci plana keçir".

> "Yazarlar bu gün hansısa sayta köşə yazısı yazmaqdansa, feysbukda status yazmağı üstün tuturlar"

"Lent.az" saytının baş redaktoru, tanınmış jurnalist Qabil Abbasoğlu "Şərq"ə açıqlamasında bildirib ki, internet mediasının inkişafı və çap mediasını sıxışdırması köşə yazılarına marağın azalmasına səbəb olub: "Belə bir deyim var: əvvəl iri balıqlar xırda balıqları yeyirdi, indi isə sürətli balıqlar daha çox yaşaya bilirlər. Texnologiya inkişaf edir, media, informasiya daşıyıcıları da onun kimi. Bu inkişaf sürətli xəbər daşıyıcılığını zəruri edib. Ona görə də xəbər bütövlükdə medianın aparıcı, əsas məhsuluna çevrilib. İnsanlar başqalarının fikirlərini oxumaqdansa, xəbər istehlakına daha çox üstünlük verirlər. Bu, məsələnin bir tərəfidir. İkinci səbəb, internet mediasının inkişafı və çap mediasını sıxışdırması ilə bağlıdır. Köşə yazıları daha çox çap mediasının janrı sayılır. Üçüncü səbəb isə fikri azad ifadə etmək imkanları ilə bağlıdır. Köşə yazısı müəllifin və KİV-in mövqe ifadə etməsi üsuludur. Mövqe həm subyektiv olduğu, həm də müəyyən risklər yaratdığı üçün yazarların bu janrdan imtina etməsini anlamaq olar".

Jurnalist Elman Cəfərli "Şərq"ə açıqlamasında vurğulayıb ki, ötən əsrin 90-cı illəri və qismən də 2000-ci illərin əvvəlləri Azərbaycan mediasının çox parlaq dövrü idi: "O zaman mediamızda çox nüfuzlu, tirajlı köşə yazarları vardı. Oxucu qəzetin yazdığına, müəllifin fikrinə inanırdı. Bir sözlə, qəzetlərin, ümumilikdə medianın cəmiyyətdə etibarı vardı. Müəllif ictimai fikri yönləndirə bilirdi. Hansısa hadisəni şərh edirdi. Müəllif mövqeyi tək qəzetlərdə deyildi, televiziyalarda da vardı. Məsələn, Orxan Fikrətoğlunun, Etibar Hüseynovun teleköşələri vardı".

E.Cəfərli əlavə edib ki, əslində medianın işi təkcə cəmiyyəti informasiya ilə təmin etmək və maarifləndirmək deyil: "Baş verən hadisələri təhlil etmək də medianın missiyasına daxildir. Məsələn, oxucu baş verən hadisələrə bəzən düzgün qiymət verə bilmir. Lakin müəllif köşə yazısında nə baş verdiyini izah edir, yönləndirici rol oynayır. Lakin son zamanlar xəbər məkanında rəqabət, informasiya axınının sürətlənməsi vəziyyəti dəyişib. İndi xəbərləri hər kəs əlindəki smartfondan istifadə edərək sosial şəbəkələrdən alır. İndi izləyicinin güvəndiyi video-blogerlər, internet televiziyalar var. Xəbəri də, baş verən hadisənin izahını da böyük ölçüdə onlardan alırlar. Bir ara tanınmış jurnalistlərdən biri özünün "youtube" kanalında tele-köşə layihəsi etdi. Lakin bu özünü doğrultmadı. Çünki indiki dövrün özünün "internet ulduzları" var. Mənim fikrimcə, media iqtisadi müstəqillik əldə edərsə, reklam bazarına çıxış imkanı qazanarsa, qəzetlər informasiya məkanında mövqeyini bərpa edə bilər. İnformasiya çevikliyini təmin etmək üçün səhər və axşam qəzetləri çıxa bilər. Jurnalist əməyi əvvəlki kimi dəyərləndirilərsə, köşə yazarları yenə oxunacaq".

25 ildən artıqdır ki, müxtəlif qəzet və saytlarda köşə yazısı ilə çıxış edən publisist, jurnalist Səbuhi Rəhimli "Şərq"ə açıqlamasında bildirib ki, son dövrlər ölkəmizdə təkcə köşə yazısına münasibət deyil, o cümlədən digər informasiyaları da oxumaq prinsipi zəifləyib və oxumaq əmsalı çox aşağı düşüb: "Hesab edirəm ki, qəzetlər özünün köşə yazıları, təhlilləri ilə oxucusunu cəlb edə bilər. Düzdür, köşə yazısına bəzi saytlarda müəyyən sayda rast gəlmək mümkün deyil. Çünki bu yazıları cəmiyyətdə oxuyanlar var. Təbii ki, onu da az adam oxuyur. Çünki cəmiyyətdə oxumağa qarşı sanki bir tənəllik prosesi başlayıb. İnternet və yeni texnologiyalar da obyektiv səbəbdir. Hazırda yalnız video şərhləri dinləyənlər var və onların sayı da kifayət qədərdir. Biz bunu müharibə dönəmində də gördük. Hansısa bir siyasi situasiya ilə bağlı bir təhlil videosu, araşdırma olarsa, ona kifayət qədər çox adam baxır. Bəzən 100 min, 200 min. Adi bir məsələni qeyd edim ki, 44 günlük Vətən müharibəsi dönəmində araşdırma yazıları yazırdım və cəbhədə nə baş verir barədə danışırdım. Bir günə 100 min, 150 min insan bu yazılara, videolara baxırdı. Mindən çox rəy yazılırdı".

S.Rəhimli əlavə edib ki, çox təəssüf ki, bu gün gənclər köşə yazısının nə olduğunu bilmirlər: "Bu istiqamətdə gənc jurnalistlər çox zəifdilər. Bunun da təbii ki, bir neçə səbəbi var. Əsasən də informasiyasızlıqdandır. Çünki rəsmi orqanlardan hansısa bir məlumatı dəqiq öyrənməlidir ki, hansısa hadisə ilə bağlı bir paralelliklə təhlil aparsın. Məsələn, biz Xankəndinə niyə gedə bilmirik? Qarabağda əslində nə baş verir? Rus ordusu doğrudanmı ermənilər ordan keçirdir? Bəs bunun sonu necə olacaq? və s. Köşə yazarı bu barədə ilk növbədə ətraflı məlumat almalıdır və bundan sonra bir qanuna uyğun formada ortaya bir təhlil çıxartmalıdır. Əgər onu doğru yazsa belə informasiya olmadığına görə insanlar onun doğru olub-olmayacağını bilməyəcəklər. Bu da təbii olaraq diqqət çəkməyəcək. Adi 1994-1998-ci illərdə "Şərq" qəzetində gündəmi dəyişə biləcək köşə yazıları yazılırdı. Amma artıq şərtlər dəyişib. Belə deyək ki, Azərbaycan mühitindən artıq köşə yazısı dövrü də sanki gedib. Amma "New York Times" da "Washington Post"da, Türkiyənin də ən çox da "Hürriyet" qəzetində bəzən bir köşə dövlətlərarası münaqişəyə və yaxud da hansısa skandala səbəb olur. O dərəcədə ciddi yanaşırlar ki, burada köşə yazılarına. Bir məsələni də vurğulayım ki, Türkiyə mediasında da bir çox əlaqələrim var. Orada çox yüksək qonorarla köşə yazısı yazırlar. Əgər köşə yazarı yaxşı, bacarıqlı yazardısa onu xüsusi olaraq oxuyurlar. Amma təəssüf ki, bizdə qorxu var. Adi heç bir ad çəkmədən mən ikimediada adamın eyninə olmayan informasiyalar verirlər. Nə düşündürücüdür, nə hiddətləndiricidir, nə ümidvericidir, nə də bir gizlinləri açan bir köşə yazıları var. O baxımdan sanki onun dövrü bitib. Köşə yazan insan özü həm yazıçı, psixoloq, həm də siyasətçi olmalıdır. Politoloji məsələləri və geopolitik mənzərəni tam bilən insanlar olmalıdır. Əgər bu gün mətbuatlar köşə yazarının üzünə bağlıdırsa, müəyyən müddət keçəndən sonra yazanın da həvəsi öləcək. İtmiş və donmuş istedadı bərpa eləmək isə olduqca çətindir. Ona görə də bu məsələdə bu gün tək gəncləri qınamaq olmaz. Onlar da yalnız hazırda gördüklərini edir. Adicə bu günləri mətbuatımızda Qarabağ döyüşləri ilə bağlı araşdırma yazıları yoxdur. Ancaq şəhidin anası, atası, bacısı, qardaşıyla söhbətlər edirlər, onlar da ağlayırlar kamera qarşısında və ancaq da cəmi bir-iki söz deyirlər. Müxbirlər də ancaq statistik məlumat verir. Ortada da heç bir araşdırma yoxdur. Amma buna yaradıcılıq baxımından, dünyəvilik baxımdan ciddi yanaşmaq lazımdır. Yəni elə bir material hazırlanmalıdır ki, bunu fransız dilinə də, ingilis dilinə də, hind dilinə də çevirsən maraqlı olsun. Amma çox təəssüflər olsun ki, nə bu cür çəkən, nə də ki, yazan var. Hesab edirəm ki, köşə yazılarının inkişafı üçün müəyyən müsabiqələr təşkil oluna bilər. Fikrimcə, o zaman köşə yazılarını diriltmək mümkün olar. Amma təəssüf ki, belə müsabiqələr təşkil olunmur".

Aynurə Pənahqızı

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

Təhsil sağlamlıq bahasına olmamalıdır

"Çantaların ağırlığı ilə bağlı həll yolu artıq tapılıb. Təhsil Nazirliyi bu ildən I siniflərdə dərsliklərin iki yarımildə çap olunmasını tətbiq etməyə başlayıb".
Təhsil naziri Emin Əmrullayev "Facebook" səhifəsindəki canlı yayımda bildirib.

Onun sözlərinə görə, növbəti ildən başlayaraq II, III siniflərdə, ibtidai siniflərdə dərslikləri bu modelə keçirmək nəzərdə tutulur:

”Bu da çantaların ağırlığına çox təsir edəcək. Valideynlərdən, xüsusilə analardan xahişim budur ki, çantaları bəzən lazımsız əşyalarla doldurmasınlar. Dərslərin ağırlığı və çətinliyi də vacib məsələdir. Çətinlik, ağırlıq deyəndə ağlıma gələn uyğunluq məsələsidir. Çünki məzmun mütləq qaydada gələcəyə uyğun olmalıdır. Bu gün məktəbə gedən uşaq bilməlidir ki, biz onu nəyə hazırlayırıq”.

“7-ci sinifdə oxuyan oğlumun çantası 7 kiloqramdır"

Təhsil sağlamlıq hesabına olmamalıdır

Pediatr Vaqif Qarayev də hesab edir ki, təhsil sağlamlıq bahasına olmamalıdır:

- Skolioz, kifoz (qısaca desək, onurğada, beldə əyrilik - red.) kimi xəstəliklər uşaqların sağlam gələcəyini təhdid edir. Bu barədə dəfələrlə danışılıb, amma hələ də əsaslı bir nəticə yoxdur. Bu, çox ciddi bir problemdir və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi onunla ciddi şəkildə məşğul olmalıdır. Skoliozu yaradan səbəblər çoxdur. Məktəb çantaları onlardan biridir. Əvvəla, ondan başlayaq ki, uşaqlar ana südü ilə qidalanmalıdır. Uşaq ana südü ilə qidalanmadıqda tədricən sümüklərdə əyilmə prosesi başlayır, yaş yarımlığında raxitlik əlamətləri özünü göstərir. Bunun qarşısını almaq üçün uşaqlar ana südü ilə maksimum bəslənməlidir. İkincisi, hər yaşda uşaq ortoped müayinəsindən keçməlidi. Amma bizim valideynlər uşağı məktəbə yazdıranda həkimə aparır - məktəbin tibbi arayış tələbi ilə. Demirəm, bütün valideynlər səhlənkardır, amma belələri çoxdur. Valideyn gərək hər yaşda uşağa diqqətlə yanaşsın. Körpə düzgün yeriyirmi, addımlarını düzgün atırmı, oturuşu, duruşu necədir? Valideyn özü başa düşmürsə, mütləq həkimə müraciət etməlidir. Bağça yaşına çatdıqda uşağa düzgün oturuş vərdişi aşılanmalıdır. Bilirsiz, bizdə günahı, məsuliyyəti bir-birinin üzərinə atmaq cəhdləri var. Valideyn bağçanı, məktəbi, müəllimləri günahlandırır, onlar da valideyni. Bağçaya, məktəbə qədər valideyn uşağın onurğa sütununun düzgün olmasına əmin olmalıdır. Necə ola bilər ki, bir ana övladına düzgün əyləşmək vərdişi öyrədə bilmir, amma müəllimdən 30 şagirdi düzgün əyləşdirməyi tələb edir?! Uşaq məktəbə gedəndə bütün qüsurları üzə çıxır. Halbuki, məktəbə getməzdən öncə bütün zəruri müayinələr aparılmalıdır. Skoliozun əsas səbəbləri - uşağın erkən yaşlarda müayinə olunmaması, oturaq həyat tərzi, mobil telefon oyunları, planşetdən əl çəkməmək, televizor, kompüter qarşısında saatlarla əyləşmək, havasızlıq! Və əlbəttə ki, ağır çantalardı. Valideyn uşağın gündəlik menyusunə diqqət etməlidir. Niyə son zamanlar kalsium çatışmazlığı artıb? Ya uşaqlara lazımi qidalar verilmir, ya da qidalar keyfiyyətsizdir. Heç bir halda özbaşına müalicə tətbiq edib uşağa balıq yağı, vitaminlər verilməməlidir. Ancaq həkim məsləhəti olmalıdır.

Çantanı ağırlaşdıran dərs yükü dür

V.Qarayev bildirdi ki, məktəbli çantası problemi həllini mütləq tapmalıdır:

- Məktəbli çantasının çəkisi, uşağın çəkisini ortalama 10 faizi qədər olmalıdır. Yəni 6 yaşlı uşağın çəkisi 20-22 kiloqramdırsa, çantası 2-2,2 kiloqramdan artıq olmamalıdır. Hətta ABŞ-da bundan az çəki tələb edilir. Başa düşə bilmirəm ki, dərs yükü niyə ağırdır? Dərsliklər şagirdlərə paylanır, uşaq məktəbə gedən kimi əlavə dərs vəsaitləri yüklənir. Təhsil Nazirliyi deyir, vacib deyil, almayın. Amma məktəbdə əlavə vəsaitlər ”işə düşür”. Müəllim əlavə vəsaitdən tapşırıq verir. Bu məsələni birdəfəlik həll etmək lazımdır. Əgər bu gün sağlamlığı bahasına kimsə dərslərini əla oxuyacaqsa, amma sabah şikəst, ya da xəstə olacaqsa, bunun cəmiyyətə, Vətənə nə xeyri olacaq? Məktəb çantası çiyinləri hər iki tərəfədn bərabər tutmalıdır və çanağın üzərinə düşməlidir. Çiyinlər sağa, sola əyilməməlidir. Şagirdin əlləri, dirsəkdən aşağı hissə partanın üzərində olmalıdır. Uşağın gözü ilə parta arasındakı məsafə 30-35 sm olmalıdır. Əks halda, qamət pozğunluğu da qaçılmaz olacaq, görmə qabiliyyətinin zəifləməsi də. Təhsil Nazirliyi bu məsələləri Səhiyyə Nazirliyi ilə birgə tənzimləməlidir. Dərs yükü azaldılmalıdır. Elektron dərsliklər təcrübəsi var. Düzdür, mən bunun əleyhinəyəm, amma müsbət təcrübələrdən istifadə etmək olar. Ən gözəl təhsil modeli Finlandiyadadır. Orada uşaqlar evdə dərs çalışmır. Nə öyrənirlər, məktəbdə öyrənirlər. Bilmirəm, niyə bizdə bu problemlər həll edilmir? Uşaqları bu qədər yükləmək nəyə lazımdır? Nədi, hamı Eynşteyn olacaq?! Uşaq xəstədir, valideynə deyirsən, bir neçə gün dərsə buraxmayın, ana qorxa-qorxa deyir ki, sabah summativdir, gərək mütləq getsin. Daha nə deyəsən? Summativlər də bir bəla olub. Finlandiyada şagirdlər ümumiyyətlə yoxlama yazmır. Orda tamam fərqli, çox da gözəl bir sistemdir. Biz niyə belə sistem tətbiq edə bilmirik?!

Valideynlər məktəbli çantalarını “kefindən” doldurmur

Bu problem bir dərslik məsələsi ilə çözülməyəcək

Sosioloq Lalə Mehralı da ”Şərq”ə açıqlamasında məktəbli çantasının ağırlığından gileylənd i:

- Nazirlik dərslikləri yarımilə böləcək, çox yaxşı. Dərsliklərin çəkisi azalacaq. Ancaq bununla məsələ bitmir. Valideynlər məktəbli çantalarını ”kefindən” doldurmur. Hansı valideyn istəyər ki, uşaq çanta altında əzilsin?! Məktəbli çantasını ağırlaşdıran səbəblər çoxdur; dərsliklərdən savayı əlavə dərs vəsaitləri, test kitabçaları, məktəb ləvazimatları. Yemək qabı, su qabı. Məktəb ləvazimatları yüngül materiallardan istehsal edilməlidir ki, çəkisi mümkün qədər yüngül olsun. Bu məsələ xüsusi diqqət tələb edir. Satışda keyfiyyətli qələmlər var, qalındırlar və ağırdırlar. Yüngül qələmlər keyfiyyətsiz olduğundan valideyn qalın qələmlərə üstünlük verir. Müəllimlərə də tapşırılmalıdır ki, dərslikdən kənar vəsaitlərdən tapşırıq verilməsin. Hər müəllim bir test tapşırır. Bu da çantada çəkini artırır. Deyə bilərsiniz ki, yemək qabı, su qabı nəyə lazımdır? Axı mən ana olaraq övladımın məktəbdə təmiz su içə biləcəyindən, keyfiyyətli nahar edə biləcəyindən əmin deyiləm. Mən övladıma su filtrindən keçmiş, süzülmüş su verirəm. Yeməyi də özüm evdə hazırlayıram. Niyə övladım məktəbdə yanmış yağda bişirilmiş ”perajki” yeməlidir?! Başqa problem idman forması, idman ayaqqabılarıdır. Şagirdlər bunları özləriylə məktəbə aparıb-gətirir. İdman formalarını sinifdə saxlamaq üçün şərait yoxdur. Bütün bunlar əlbəttə, məktəbli çantasını ağırlaşdırır. Oğlum 7-ci sinifdə oxuyur, çantası 7 kiloqramdır. Bu problem bir dərslik məsələsi ilə çözülməyəcək.

Məlahət Rzayeva

Gələcək startaplarındır

"Startap" şəhadətnaməsi alan kiçik və orta biznes (KOB) vergidən azad olacaq. Bu barədə Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov "Twitter" hesabında yazıb: "Startap" şəhadətnaməsi alan KOB-lar 3 il müddətinə innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergilərindən azad olunacaq".

“3 il gözləmədən əlavə güzəştlər, stimullaşdırıcı digər dəstəklər həyata keçirilməlidir”

Mövzuya münasibət bildirən iqtisadçı-ekspert Eldəniz Əmirov ”Şərq”ə açıqlamasında deyib ki, Azərbaycan əksər sahələrdə Ermənistanı birmənalı olaraq üstələsə də, etiraf edək ki, startap layihələr məsələsində biz onlardan geri qalırıq. E.Əmirov qeyd edib ki, Ermənistanda elə startaplar var ki, işçi sayını 600-ə çatdırırdı: ”Bəlkə də artıq min olub. Bunların hər biri də yüksək texnologiyalar sahəsində biliyi olan şəxslərdi. Onlar on milyonlarla dollar investisiya cəlb etməyi bacarıb, sürətlə böyüyürlər. Əgər bu istiqamətdə ciddi canlanma yarada bilməsək, bu sahədə gələcəkdə düşmən ölkədən geri qala bilərik. Çünki belə startaplar təkcə iqtisadi inkişafı təmin etmir, eyni zamanda məhdud bazarlara sahiblənirlər. Paralel olaraq gələcək üçün böyük məlumat bazası toplamaqla məşğuldurlar. Bu əsasən texno istiqamətli startaplarda daha geniş yayılır. Onsuz da hazırda informasiya ən strateji məhsul sayılır, illər ötdükcə bu status daha da böyüyəcək. Ermənistanı bu sahədə özümüzdən irəli buraxmamaq üçün startapların yaranması və inkişafı üçün çox böyük zərurət yaranıb. Düşünürəm ki, cənab nazir Mikayıl Cabbarovun tvitter üzərindən kiçik və orta biznesin ilk 3 il ərzində vergi yükləmələrindən azad olma şərtlərilə bağlı yeniliklərə toxunması məhz bu səbəbdən idi. ”Startap” şəhadətnaməsi alan kiçik və orta təsərrüfat subyektlərinin 3 il müddətinə innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergilərindən azad olunmaları nəzərdə tutulur. Bu cür motivasiya edəcək bütün qərarlar əslində daha erkən verilməlidir. Amma gec olması, heç olmamasından daha yaxşıdır”.

"Əgər bu istiqamətdə ciddi canlanma yarada bilməsək, bu sahədə gələcəkdə düşmən ölkədən geri qala bilərik"

E.Əmirov digər tərəfdən də hesab edir ki, biz bu qərarın özünü necə doğruldacağını gözləmək üçün 3 il oturub gözləməli deyilik: ”İllər, hətta rüblər üzrə dinamika ciddi şəkildə izlənilməlidir. Əgər effektivlik dərəcəsi kifayət qədər olmadığı aydın olarsa, startapların yüksəliş tempi qənaətbəxşedici olmazsa, 3 il gözləmədən əlavə güzəştlər, stimullaşdırıcı digər dəstəklər həyata keçirilməlidir. Çünki gələcək startaplarındır. Dırnaqarası ”qocalmış” iri şirkətlər nə qədər innovativ olmağa çalışsalar da, dünyanın uğurlu startaplar ilə ayaqlaşa bilməyəcəklər. Bu gün dünya iqtisadiyyatının və texnologiyasının aparıcı qüvvələri yaxın keçmişin startap layihələri olub. Çünki intellektual resurslar təbii resursları artıq asanlıqla yeyir. Buna görə də bu istiqamətdə real işlərin görülməsinə çox böyük ehtiyac var. Və bu ehtiyac hər ayda bir dəfə rəsmi qurumların ”Startaplara qayğını artırırıq” kimi başlıqlar qoyulmuş şou xarakterli tədbirlərdən ibarət olmamalıdır. Belə tədbirlər onsuz da heç bir quruma iqtisadi dividend gətirmir. Necə ki, bir valideyn uşağının parlayaraq yüksəlməsinə ciddi səylər göstərir və bunu heç vaxt heç bir yerdə ”mən uşağım üçün bunları edirəm” demir. Çünki o anlayır ki, bu bir valideynlik borcudur. İndi hər bir qurum öz sahəsində startaplar ”dünyaya gətirməyə” çalışmalı və ya özü ”doğulmuş” startapların parlaması üçün əlindən gələni etməlidir. Çünki bu sahədə təkcə bir qurumun, məsələn, İqtisadiyyat Nazirliyinin tək başına səy göstərməsi, stimullaşdırıcı tədbirlər görməsi böyük hədəflərə nail olmaq üçün kifayət deyil”.

Aynurə Pənahqızı

Bu yaş üçün ölüm çox tez gəldi

Xəbər verdiyimiz kimi, tanınmış aktyor Ramiz Hüseynzadə vəfat edib. Onun qəfil ölümü sənət dünyasını yasa boğub. "Şərq" xəbər verir ki, dostları mərhum haqqında paylaşımlar edib-lər.

Aktyor Fərda Xudaverdiyev acısını belə dilə gətirib:

"Allah sənə rəhmət eləsin, Ramiz qardaşım. İllərin dostu, "Tək səbir" Ramiz. Nə yaxşı ki, 9 gün öncə arzusunda olduğun məkanın açılışına gəldim və son dəfə görüşdük. Yerin behişt olsun. Dostlar, ölüm işə, yaşa baxmır. Odur ki, çalışaq, mehriban olaq".

Aparıcı Zümrüd Bədəlova isə aktyorun videosunu paylaşaraq bunları yazıb:

"Ona görə də həyatın, yaşamağın, sağlamlığın qədrini bilək. Mənə deyirdin, sən nə qədər gülürsən. Gəl səni ağladım, sonra lentə alım. Ramiz, ağlatdın məni. Çox heyif. İnsan həyatı bir göz qırpımında bitir. Hamımız bir gün dünyadan köçəcəyik. Amma bu yaş üçün ölüm çox tez idi. Allah o dünyasını versin".

Xalq artisti Röya Ayxan da aktyorun ölümünə çox üzüldüyünü söyləyib.

Aparıcı Mətanət Əliverdiyeva R.Hüseynzadə haqqında bunları deyib:

"Qırx bir... bu, Ramizin keçdiyi ömür yoludur. Və son. O, ürək tutmasından dünyasını dəyişdi. Yaradıcı insanlar həmişə tez köçür həyatdan. Öləndə deyirik ki, heyif, cavan getdi. Bir dəfə doğuluruq, min dəfə yox!".

Aktyor Kənan Yusifov isə həmkarı ilə bağlı bu sözləri yazıb:

"Allah rəhmət eləsin. Ramiz gənc yaşda dünyasını dəyişdi. Bir neçə gün öncə yeni məkanının açılışında birgə idik. İnanmaq olmur".

Qeyd edək ki, Ramiz Hüseynzadə müxtəlif televiziya kanallarında müəllif, aparıcı və prodüser olaraq çalışıb. "Taksi" verilişinin prodüseri, "Tək səbir" verilişinin baş prodüseri, "Arı şou" verilişinin yaradıcısı və aparıcısı olub.

Samirə Ərəblinski

Aktyorun vaxtsız vəfatı sənət dünyasını qəhərə boğdu

Ağır yaralanan qazilərimizə Novruz sovqatları paylanıb

Bakcell şirkəti "YAŞAT" Fondunun daha bir təşəbbüsünə qoşulub

"YAŞAT" Fondunun və "Bravo" marketlər şəbəkəsinin birgə təşkilatçılığı ilə şəhid ailələri və tibb müəssisələrində yataq şəraitində müalicə alan ağır yaralanan qazilərimizə Novruz sovqatlarının paylanılması təşəbbüsünə Bakcell şirkəti də qoşulub.

Layihə çərçivəsində tərəfdaş təşkilatların dəstəyi ilə hazırlanmış bayram sovqatlarından ibarət qutuların şəhid ailələri və yataq şəraitində müalicə alan ağır yaralanan qazilərimizə çatdırılması nəzərdə tutulur. Məqsəd müvafiq kateqoriyadan olan şəxslərin daim, o cümlədən Novruz bayramı ərəfəsində diqqət mərkəzində saxlanılması, onların sosial qayğı ilə əhatə olunmasıdır.

"YAŞAT" Fondu şəhidlərimizin ailə üzvlərinin və qazilərimizin müraciətlərini diqqət mərkəzində saxlayır, onların müxtəlif ehtiyaclarının qarşılanması üzrə işləri davam etdirir.

Qeyd edək ki, "Bakcell"in daxil olduğu "NEQSOL Holding"in tərkibində olan şirkətlər "YAŞAT" Fonduna ümumilikdə 1,2 milyon manat məbləğində vəsait köçürüblər.

Həmçinin, Bakcell şirkəti Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək göstərmək istəyən abunəçilərinə "YAŞAT" fonduna öz balanslarından ianə etmək fürsəti təqdim edib. YAŞAT fonduna edilən ianə üçün göndərilən SMS tamamilə pulsuzdur.

Nazir gənc kadrları həvəsləndirdi

Bundan sonra müəllimlər kəndlərə axın edəcəklər

"Dünən feysbukda canlı yayımda Təhsil naziri Emin Əmrullayev müəllimlərin işə qəbulu imtahanı (MİQ) ilə bağlı maraqlı bir yenilik haqqında danışdı.

Təklif olunan dəyişikliyə görə, kənd yerlərində, xüsusilə də həmin ərazilərdə yaşamayan gənc məzun müəllimlər 5 il ucqar kənddə işlədikdən sonra MİQ-də təkrar iştirak etdiyi zaman ona əlavə bal veriləcək".

"Şərq"in məlumatına görə, bu sözləri feysbuk profilində təhsil eksperti Kamran Əsədov yazıb. O, şərhinə davam edərək bunları söyləyib: "Çox ədalətli qərardır. Gənc müəllimlərdə regionlarda işləmək üçün stimul olacaq. İndi bir çox ixtisaslar üzrə MİQ-də 54,55 və daha çox bal toplayan müdavimlər Bakıda vakansiya olmadığı üçün, yaxud yüksək bal toplayan şəxslər tərəfindən tutulduğuna görə işə qəbul olunmurlar. Həm də bölgələrə də getmirlər. İndi isə həmin şəxslər həvəslənəcəklər ki, 5 il işlədikdən sonra əziyyətləri nəzərə alınacaq, müsabiqədə uğur qazana biləcəklər.

Savadlı kadrlar da qəbul prosesindən kənarda qalmayacaqlar. Əksinə, daha yüksək bal toplayanlar arasında müsabiqə keçiriləcək. Digər tərəfdən isə ratasiya qaydası mütləq tətbiq edilməlidir.

Hesab edirəm ki, cari ildən bu yeniliyin tətbiq edilməsi ilə müəllimlərin bölgələrdə daha yüksək balla işə qəbulu müşahidə olunacaq".

Samirə

"Bir dəfə papağıma palçıq qoymuşdular"

Tanınmış aktyor uşaqlıqda Novruz bayramında başına gələn əhvalatdan yazıb

Tanınmış aktyor Taleh Yüzbəyov feysbuk səhifəsində Novruz bayramı ilə bağlı paylaşım edib. Sənətçi statusda uşaqlıq illərindən, keçmiş bayram xatirələrindən yazıb.

"Şərq" xəbər verir ki, T.Yüzbəyovun postu izləyiciləri tərəfindən maraqla qarşılanıb. O, məlum statusda bunları söyləyib: "İllər əvvəl elə Novruz qabağı idi, papaqatma "sezon"unu açıq elan eləyib, düşmüşdük qonşuların canına. Çox anaların əl qabiliyyətinə, ailələrin maddi vəziyyətinə şahid olurduq. Birdən burnumuza təzə bişən qoğal iyi gəldi. İyləyə-iyləyə gedib qapıya çatdıq. Bura zibilxananın yanındakı həyət evi idi. Mənim qulaqlı rus papağımı qoyub, qapını döydük və qaçıb gizləndik. Güdürdük ki, birdən qapı açıldı, papağı götürdülər, sevindik. Bir neçə dəqiqə sonra geri qoyub qapını bağladılar. Tülkü kimi gedib, papağı götürüb qayıtdım. İçində təzə bişmiş, hələ də buxarlanan iki ədəd qoğal var idi. 3-4 nəfərə elə yerindəcə qoğalları parçaladıq və əlbəttə ki, doymadıq. Məndən böyük olan Rövşən "tırka" verməyə başladı ki, get yenə at! Dedi ki, onlar yaxşı adamdılar, yenə qoyacaqlar. Həmişəki kimi əvvəl "tırka"ya, sonra həmin qapıya tərəf getdim.

Papağı qoydum, qapını döydüm, dönüb qaçırdım ki, bir də gördüm başımın üstü ilə nəsə uçur. Başımı qaldırıb, baxdım ki, həmin qulaqlı papağım məni göydə keçib, gedib düşdü düz zibilxanaya. Əclaf ayaqla papağa Ronaldonun "ölü yarpaq" udarından vurmuşdu. Çox pis pərt oldum. Bir müddət papaq atmadım. Uşaqlıq travmalarımız az olmayıb. Bir dəfə də papağımıza palçıq qoydular. Onda fikrə getdik ki, insanlar nə vaxt belə oldu?! Sonra ümumiyyətlə heç nə qoymadılar. Lap sonra heç qapını da açmadılar. Vaxt gəldi şəkərbura-paxlavanı marketlərdə satmağa başladılar və çoxumuz evdə bişirməyib, elə ordan aldıq. İndi blokların çoxunda kod var.

Bayramımız mübarək!".

Samirə Ərəblinski

Müğənni koronavirusa yoluxdu

Ülvi Qılınc hazırda müalicə alır

Müğənni Ülvi Qılınc koronavirusa yoluxub.

Bu barədə "Elgizlə izlə" verilişində aparıcı Elgiz Əkbər məlumat verib. Aparıcı qeyd edib ki, şəxsən müğənni ilə telefon əlaqəsi yaradaraq səhəti ilə maraqlanıb. "Ülvi Qılınc hazırda müalicə alır. Mən də koronavirusa yoluxmuşam. Çox ağır xəstəlikdir. Allah Ülviyə də şəfa versin".

"Şəhidlərimiz var"

Nazilə: "Məni "Novruz" şənliyinə dəvət etməyin"

"Hörmətli restoran sahibləri və idarəçilər, zənglərinizi nəzərə alaraq xahiş edirəm ki, məni "Novruz" şənliyi üçün aparıcı qismində dəvət etməyin".

"Şərq" xəbər verir ki, bu sözləri instaqram səhifəsində tanınmış aparıcı, şairə Nazilə Səfərli yazıb. O, fikirlərinə bunları da əlavə edib:

"Şəhidlərimizin ruhunu hörmətlə anıram. Bu il evimizdə bayram azuqəsi tutulmayacaq. Bayram şirniyyatı bişməyəcək. Vətən sağ olsun".

Samirə

Forma № 2S

Azərbaycan Respublikasının Maliyyə Nazirliyini 5 dekabr 2008-ci il-125 №-li əmri ilə təsdiq edilmişdir.

SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MƏNFƏƏT və ZƏRƏRİ HAQQINDA HESABAT (rüblük və illik)

Sığortaçının (təkrarsığortaçının) və ya sığorta brokerinin adı: _____Qala Sığorta ASC_____

Hesabat dövrü _____01.01.2021_____

ilin əvvəlindən artan yekunla

manatla

Gəlirlər	Məbləğ
Əsas əməliyyat gəliri:	37859318,50
birbaşa sığorta üzrə sığorta haqları	33002592,21
təkrarsığorta üzrə təkrarsığorta haqları	0,00
sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə	1879167,22
təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə	2977559,07
Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)	-2942493,86
İnvestisiya gəlirləri üzrə	927201,27
Subroqasiya gəlirləri	84889,31
Sair gəlirlər	208820,23
CƏMİ GƏLİRLƏR	36137735,45
Xərclər	
Əsas əməliyyat xərcləri:	25780513,60
sığorta ödənişləri və sığorta məbləğləri üzrə	3360760,89
qaytarılan sığorta haqları üzrə	1023621,69
tənzimləmə xərcləri	17455,57
təkrarsığortaya verilmiş sığorta haqları üzrə	21233081,74
qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə	145593,71
sığorta fəaliyyəti üzrə sair xərclər	0,00
İşlərin aparılması xərcləri	7410903,48
Sair xərclər	186810,83
CƏMİ XƏRCLƏR	33378227,91
Maliyyə mənfəəti (zərəri)	2759507,54
Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi	0,00
Vergiqoyulmadan əvvəl mənfəət (zərər)	2759507,54
Mənfəət vergisi	618968,52
Hesabat dövründə xalis mənfəət (zərər)	2140539,02

Forma № 1S

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin 5 dekabr 2008-ci il İ-125 №-li əmri ilə təsdiq edilmişdir.

SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MÜHASİBAT BALANSI (rüblük və illik)

Sığortaçının (təkrarsığortaçının) və ya sığorta brokerinin adı: _____Qala Sığorta ASC_____

Hesabat dövrü _____01.01.2021_____

manatla

AKTİVLƏR	İlin əvvəlinə	Hesabat dövrünün sonuna
I.UZUNMÜDDƏTLİ AKTİVLƏR		
Torpaq, tikili və avadanlıqlar	537674,42	531521,84
Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması	37000	50999,27
Daşınmaz əmlaka investisiyalar	0	0,00
Qeyri-maddi aktivlər	196970,68	291872,67
Təxirə salınmış vergi aktivləri	26624,61	26624,61
Uzunmüddətli debitor borcları	0	0,00
Uzunmüddətli maliyyə aktivləri:	1710	1710,00
dövlət qiymətli kağızları	0	0,00
qeyri-dövlət qiymətli kağızları	1710	1710,00
sair maliyyə aktivləri	0	0,00
İştirak payı metodu ilə uçota alınmış investisiyalar	0	312500,00
Təsisçi və ya səhmdarlarla hesablaşmalar	0	0,00
Sair aktivlər	600000	600000,00
Cəmi uzunmüddətli aktivlər	1399979,71	1815228,39
II. QISAMÜDDƏTLİ AKTİVLƏR		
Ehtiyatlar		
Debitor borcları:	2841116,44	5607451,68
birbaşa sığorta üzrə	2609822,35	3797877,68
təkrarsığorta əməliyyatları üzrə :	206450,79	1568230,39
- təkrarsığortaçı üzrə	206450,79	1568230,39
- təkrarsığortalı üzrə	0	0,00
asılı təşkilatlar üzrə	0	0,00
büdcə üzrə	0	0,00
iddia tələbləri üzrə	0	0,00
işçi heyəti üzrə	0	0,00
sığortalılara verilən borclar üzrə	0	0,00
sair debitorlar	24843,3	241343,61
Pul vəsaitləri və onların ekvivalentləri:	8819494,69	17586117,10
kassa	2968,31	3343,79
hesablaşma hesabı	6971909,96	11159192,43
valyuta hesabı	900022,47	1547251,93
depozit hesablar	890000	4840000,00
sair pul vəsaitləri	54593,95	36328,95
Qısamüddətli maliyyə aktivləri:	7849268,1	9673536,55
dövlət qiymətli kağızları	7849268,1	9673536,55
qeyri-dövlət qiymətli kağızları	0	0,00
sair maliyyə aktivləri	0	0,00
Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:	10209295,48	11059508,68
həyat sığortası sahəsi üzrə	0	0,00
qeyri-həyat sığortası sahəsi üzrə	10209295,48	11059508,68
Sair qısamüddətli aktivlər:	362973,43	1727311,36
gələcək hesabat dövrlərinin xərcləri	64377,57	704568,86
verilmiş avanslar	298595,86	1022742,50
təhtəl hesablar	0	0,00
Sair aktivlər	65769,49	65769,49
Cəmi qısamüddətli aktivlər	30147917,63	45719694,86
CƏMİ AKTİVLƏR	**31547897,34**	**47534923,25**

KAPİTAL VƏ ÖHDƏLİKLƏR	Hesabat dövrünün sonuna	Hesabat dövrünün sonuna
I. KAPİTAL		
Ödənilmiş nominal (nizamnamə) kapitalı	8050000	8050000,00
Emissiya gəliri	0	0,00
Geri alınmış kapital (səhmlər)	0	0,00
Kapital ehtiyatları:	0	0,00
yenidən qiymətləndirilmə üzrə ehtiyat	0	0,00
digər kapital ehtiyatları	0	0,00
Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)	1693599,59	3834138,60
Hesabat dövründə xalis mənfəət (zərər)	1338467,8	2140539,02
Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər	0	0,00
Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)	355131,79	1693599,58
Elan edilmiş dividendlər		
Cəmi kapital	**9743599,59**	**11884138,60**
II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR		
Sığorta ehtiyatları:	15807696,53	19600403,59
Həyat sığortası sahəsi üzrə :		
Qeyri-həyat sığortası sahəsi üzrə:	15807696,53	19600403,59
Qarşısıalınma tədbirləri fondu	317548,22	457378,94
Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər	0	0,00
Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər	0	0,00
Təxirəsalınmış vergi öhdəlikləri	0	0,00
Kreditor borcları :	0	0,00
əməyin ödənilməsi üzrə		0,00
büdcə üzrə	0	0,00
sosial sığorta və təminat üzrə	0	0,00
digər məcburi ödənişlər üzrə	0	0,00
asılı təşkilatlar üzrə	0	0,00
sair kreditorlar	0	0,00
Sair uzunmüddətli öhdəliklər:	0	0,00
gələcək hesabat dövrünün gəlirləri	0	0,00
alınmış avanslar	0	0,00
Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:	632981,12	1017363,01
təkrarsığortaçı üzrə	632981,12	1017363,01
təkrarsığortalı üzrə		0,00
Təsisçi və ya səhmdarlarla hesablaşmalar		0,00
Sair öhdəliklər	0	0,00
Cəmi uzunmüddətli öhdəliklər	**16758225,87**	**21075145,54**
III. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR		
Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər	0	0,00
Qısamüddətli qiymətləndirilmiş öhdəliklər	0	0,00
Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər	0	0,00
Kreditor borcları:	1749933,8	2234975,52
əməyin ödənilməsi üzrə	1006,34	0,00
büdcə üzrə	64029,25	397594,39
sosial sığorta və təminat üzrə	0	0,00
digər məcburi ödənişlər üzrə	290494	243240,21
asılı təşkilatlar üzrə	0	0,00
sair kreditorlar	1394404,21	1594140,92
Sair qısamüddətli öhdəliklər:	3296138,08	12340663,59
gələcək hesabat dövrünün gəlirləri	0	0,00
alınmış avanslar	3296138,08	12340663,59
Təsisçi və ya səhmdarlarla hesablaşmalar	0	0,00
Sair öhdəliklər	0	0,00
Cəmi qısamüddətli öhdəliklər	**5046071,88**	**14575639,11**
CƏMİ ÖHDƏLİKLƏR	**21804297,75**	**35650784,65**
CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR	**31547897,34**	**47534923,25**
Qeyd : Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi*	0	0,00

Sərbəst auditor
E.E. İbrahimov
İcazə Q/N - SA/328

S.Y. Bakuvi küçəsi 35
AZ 1072, Bakı, Azərbaycan
Tel. : +994 (50) 2255050

MÜSTƏQİL AUDİTORUN HESABATI

«Qala Sığorta» ASC
Təsisçisinə və Rəhbərliyinə

Rəy

Biz **«Qala Sığorta» ASC** -nin 31 dekabr 2020-ci il tarixinə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülasəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.
Hesab edirik ki, Cəmiyyətin qoşma maliyyə hesabatları bütün əhəmiyyətli aspektlərdə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS)-ya uyğun olaraq hazırlanmışdır.

Rəy üçün əsaslar

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika Məcəlləsinin" (IESBA Məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də IESBA məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Əsas audit məsələləri

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Bizim məqsədimiz tətib edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində,

Auditor hesabatının davamı

əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamama riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şərtlər şərçivəsində uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Sərbəst auditor
Elnur İbrahimov
19 mart 2021-ci il

Sərbəst Auditor • Elnur Ekan oğlu İbrahimov • Auditorlar Palatası

Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü
SA/328

Nağdsız ödənişlərin dövlətə xeyri çoxdur

Bununla qara mühasibatlığın və kölgə iqtisadiyyatının qarşısı alınır

Qarayev ”Şərq”ə açıqlamasında bildirib ki, nağdsız ödənişlərin dövlətə xeyri çoxdur. Ekspert əlavə edib ki, bununla bağlı qanunvericilik də var: ”Qanunvericilik artıq sahibkarı məcbur edir ki, nağdsız qaydada ödənişlər etsinlər. Müsbət cəhətləri odur ki, dövlət ödənişlərin uçotuna rahat nəzarət edir. Vergidən yayınmalar azalır. Həmçinin ödəniş rahat formada həyata keçirilir. Əskinasların dövriyyəyə çox buraxılmasına ehtiyac qalmır”.

R.Qarayev əlavə edib ki, nağdsız ödənişlərlə qara mühasibatlığın və kölgə iqtisadiyyatının qarşısı alınır: ”Nəticədə banklara tələbat artır. Demək olar ki, nağdsız ödəniş bütün sferanı hərəkətə gətirir. Artıq dövlət vətəndaşın büdcəsinə belə nəzarət edə bilir. Statistik uçotlarda rəqəmlər artıq şişirdilmiş və kor-təbii olmur. Nağdsız hesablaşmalar məsafələri qısaldır. Artıq mən əgər məhsul alıramsa, kart hesabımdan ödəniş etməklə, vaxtıma qənaət etmiş oluram. Mənim ödənişimdən bank xidmət haqqı tutub, öz ehtiyacları üçün xərcləyir. Vergi dəqiq bank vasitəsi ilə ödənişlərə rahat şəkildə nəzarət edə bilir. Gələcək də nağdsız hesablaşmaya doğru gedir. Bildiyiniz kimi, viruslarda pul əskinasları vastəsi ilə də insana keçir. Bu o deməkdir ki, sağlamlığımız üçün də nağdsız hesablaşma önəmlidir”.

İqtisadçı diqqətə çatdırıb ki, təəssüf ki, bizim iqtisadiyyatımız nağdsız hesablaşmaya tam hazır deyil: ”İstənilən halda adi bazara getsən belə, sənə nağd pul lazımdır ki, hər hansı bir meyvə və tərəvəzi alasan. Nağd pullar dövriyyədə daim olub və olacaq da. Gələcəkdə bunun tam əvəz edilməsi üçün mexanizm hazırlansa, hesab edirəm ki, o halda dünya bundan imtina edəcək. Hələ ki nağd hesablaşma ilə əməliyyat var, olmaqda da davam edir. Baxmayaraq ki, nağdsız hesablaşmaya keçidlə bağlı bir çox işlər görülüb və ya görülməkdə davam edir. Qeyd edim ki, İsveçdə nağdsız hesablaşma edənə bir çox üstünlüklər verilir. Amma buna baxmayaraq orada hələ də nağd hesablaşma mövcuddur”.

Aynurə Pənahqızı

> "Dövlət ödənişlərin uçotuna rahat nəzarət edir. Vergidən yayınmalar azalır"

Son illər görülən işlər nəticəsində ölkə üzrə nağdsız ödəniş göstəricilərində əvvəlki dövrlərlə müqayisədə əhəmiyyətli artım müşahidə olunub, 2020-ci il üzrə elektron bankçılıq vasitəsilə cari hesablardan aparılmış müştəri köçürmələrinin həcmi (95,7 milyard manat), eyni zamanda, ödəniş kartları ilə ölkə daxilində həyata keçirilmiş nağdsız əməliyyatların həcmi (6,4 milyard manat) tarixi maksimuma çatıb.

Ölkədə müasir ödəniş ekosisteminin formalaşdırılması və innovasiyaların inkişafının təşviqi ilə yanaşı, sözügedən istiqamətlər üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi də daima diqqət mərkəzində saxlanılır.

Nağdsız ödənişlərin əhəmiyyətindən danışan iqtisadçı-ekspert Rauf

“Bakcell"in 4G şəbəkəsinə keç və 5 GB İnternet hədiyyə al!

Bakcell şirkəti özünün 4G/LTE şəbəkəsinə keçmək istəyən abunəçilər üçün xüsusi kampaniya elan edib.

Belə ki, 3G SİM-kartlarından istifadə edən abunəçilər ”Bakcell”in istənilən müştəri xidməti mərkəzi, rəsmi və ya diler mağazasına yaxınlaşmaqla pulsuz 4G SİM kartı və 5 GB həcmində internet trafiki hədiyə alacaqlar.

”Bakcell”in 4G şəbəkəsinə keçməklə, abunəçilər ölkənin ən sürətli mobil şəbəkəsindən yararlanacaq və qarşıdan gələn Novruz bayramı günlərində yüksək sürətli Bakcell internetindən PULSUZ faydalanacaqlar. ”Bakcell”in 4G xidməti gündəlik mobil internet istifadəsi üçün daha yüksək sürəti təmin edir. 4G əsasən daha sürətli, rahat və sabit texnologiya deməkdir.

Bakcell şirkətinin qurduğu ən müasir 4G şəbəkəsi abunəçilərə öz smatrfonlarının ən maraqlı funksiyalarından tam şəkildə yararlanmaq imkanı verir. Bu isə o deməkdir ki, sözügedən texnologiya sayəsində Bakcell abunəçiləri 4K kontentini izləmək və yükləmək, onlayn təhsil, konfrans və əyləncə proqramlarına ani giriş əldə etmək, HD keyfiyyətində onlayn video strimlərini izləmək və yüksək sürətli internet tələb edən digər xidmətlərdən istifadə etmək imkanına malikdirlər.

Dünyaca məşhur OOKLA şirkəti üç dəfə ardıcıl olaraq Bakcell şəbəkəsini Azərbaycanın ən sürətli mobil şəbəkəsi adlandırıb.

Elan

İsmayıllı Nihad Nahid oğlunun adına Sumqayıt şəhər 35 saylı məktəbdən verilmiş A-404392 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

“Nar" "YAŞAT" Fondunun aksiyasına qoşulub

”Nar” ”YAŞAT” Fondu və ”Bravo” marketlər şəbəkəsinin birgə təşkilatçılığı ilə şəhid ailələri və ağır yaralanan qazilər üçün həyata keçirdiyi aksiyaya qoşulub.

Belə ki, müxtəlif şirkətlərin dəstəyi ilə reallaşan aksiya çərçivəsində şəhid ailələri və tibb müəssisələrində yataq şəraitində müalicə alan ağır yaralı qazilərə Novruz sovqatlarının çatdırılması nəzərdə tutulur. Məqsəd şəhid ailələri və qazilərin daima, o cümlədən Novruz bayramı ərəfəsində də diqqət mərkəzində saxlanılması, onların sosial qayğı ilə əhatə olunmasıdır.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsi dövründə ”Nar” cəbhə xətti ilə sərhəddə olan abunəçilərinə dəstək olub. Müharibədən sonra həm şəhid ailələrinə, həm də qazilərə xüsusi diqqətin göstərilməsi ”Nar”ın sosial layihələrinin əsas istiqamətlərindən biridir.

Pandemiya yuxu rejimini pozub

Bütün dünyanı cənginə alan koronavirus hələ də davam edir. Artıq virus insanların həyat rejimində də müəyyən dəyişikliklər edib. Bu dəyişikliklərdən biri də insanların yuxu rejimidir.

”Şərq” xarici mətbuata istinadən xəbər verir ki, məşhur şirkət ”Philips” ”COVİD-19 bütün dünyanın yuxu rejimini necə dəyişdirdi?” adlı sorğu keçirdib. ”Philips” 13 ölkədən 13 mindən çox yetkin arasında yuxu ilə əlaqəli araşdırma aparıb. Sorğunun əsas məqsədi isə insanların düşüncə və davranışlarını təyin etmək olub. Anketdə respondentlərin 19 faizinin qənaəti budur ki, COVID-19-dan sonra yuxu rejimində problem yaşanır. İştirakçıların 60 faizi isə COVID-19-un yuxu keyfiyyətinə birbaşa təsir etdiyini bildirib.

Aynurə

Hər şey yanıb kül oldu

Tələbə qız anasının qızıllarını axtarır

Türkiyənin Artvin şəhərinin Yusufeli rayonuna bağlı Dereiçi kəndində yerləşən bir ev yanıb.

Küləyin nəticəsində yayılan yanğın səbəbilə 35 binada olan 60 ev və tövlələr yanaraq külə dönüb. Yanan evlərin sahibləri yanğından geriyə qalan əşyalarını axtarırlar. Onlardan biri də ali məktəb tələbəsi olan Elif Tamyürek adlı qızdır. Elif burada kitabları, kompüteri, cehizləri ilə yanaşı həm də anasına aid olan qızılları axtarır. Onun sözlərinə görə, bütün əşyaları yanan evləri ilə bərabər yox olub.

Yanğın zamanı başqa bir yerdə olduğunu və xəbəri eşidəndə dərhal gəldiyini izah edən Elif Tamyürek, ”Valideynlərim evdə idi. Yanğın barədə eşidəndə zəng etdim. Valideynlərim çıxıb evin altındakı tövlələrdəki heyvanları xilas etməyə çalışdılar. 10 heyvanımız var idi, 5 heyvan tələf oldu. Bu anda yanğın evə keçdi. Evimiz tamamilə yanaraq yararsız hala düşüb. Heç bir əşyamızı saxlaya bilmədik. Mən bir universitet tələbəsiyəm, kitablarım, dizüstü kompüterim yandı, cehizim getdi. Anamın zinət əşyaları yox oldu. Atamın bir az pulu var idi və çox təəssüf ki, o da yanıb. Heç nə saxlaya bilmədik.Geyindiyimiz paltarla ortada qaldıq” deyib.

Aytac Ali

Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və **VİZAj** (3 AY)
-KİŞİ və **QADIN BƏRBƏRİ** (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Psixologiya və Para psixologiya (3-12 ay)
Tel: (012) 566-88-96
(012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun I müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

Reportyorlar qrupu: Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet “**Şərq**”in kompyuter mərkəzində yığılır, səhifələnir və **“Azərbaycan”** nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, **“Azərbaycan”** nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BİK AIİ-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 520

Finlandiya dünyanın ən xoşbəxt ölkəsidir

Finlandiya ardıcıl olaraq dördüncü dəfə dünyanın ən xoşbəxt ölkələri reytinqinə başçılıq edir.

Xarici media xəbər verir ki, bu barədə BMT-nin Stabil inkişaf həllərinin axtarışı üzrə bölməsinin "World Happiness Report" məruzəsində deyilir. Reytinqdə dünyanın 149 ölkəsi gözlənilən ömür uzunluğu, sosial dəstək, korrupsiya və digər göstəricilər üzrə qiymətləndirilir.

Ən xoşbəxt 10 ölkə sırasına, həmçinin İslandiya, Danimarka, İsveçrə, Niderland, İsveç, Almaniya, Norveç, Yeni Zelandiya və Avstraliya daxil olub. ABŞ reytinqin 14-cü, Böyük Britaniya 18-ci, Fransa isə 20-ci pilləsində qərarlaşıb.

Xatırladaq ki, xoşbəxt ölkələr barədə məruzə ilk dəfə 2012-ci ildə tərtib olunub.

İşin üstü təsadüfən açılıb

Kişi ginekoloq 40 il ərzində 9000 uşağa sahib olub

88 yaşlı Filipp Peven uzun illər ginekoloq həkim kimi çalışıb. Hazırda təqaüddə olan həkim 40 il ərzində pasiyenti olan qadınlara gizli donor olub və 9000 qadının hamilə olmasına səbəb olub.

ABŞ-ın Detroyt şəhərində yaşayıb işləyən Filipp nəinki hamilələri qəbul edib, doğuşda iştirak edib, o eyni zamanda hamilə ola bilməyən qadınlara sperm donoru olaraq onların mayalanmasında da iştirak edib.

İşin üstü təsadüfən açılıb. Ceymi Holl adlı qadın süni mayalanma nəticəsində doğulub. İllər sonra o, bioloji atasını tapmaq qərarına gəlib. Uzun araşdırmalar onun atasının ginekoloq Filipp olduğunu üzə çıxarıb. DNT analizi də müsbət çıxdıqdan sonra Filipp neçə min qadına donor olduğunu etiraf edib.

Bundan sonra Ceymi digər qan bağı olan bacı -qardaşlarını axtarmaq qərarına gəlir. 23andMe biotexnoloji şirkətə müraciət edən qadın 2020-ci ilin sonuna kimi yüzlərlə bacı qardaşını tapır.

Həkimdən olan bütün uşaqlar onun bu addımını normal qarşılayıb və bu işdə pis bir şey olmadıqlarını deyiblər.

"O, bir qadını sonsuzluqdan xilas edib, ana edib və bizim dünyaya gəlməyimizə səbəb olub. Buna görə ona minnətdar olmalıyıq". (medicina.az)

Filipp etiraf edib ki, digər həkimlər də qadınlara donor olub və bu tarixən var. Burda heç bir qanun pozuntusu da yoxdur, çünki qadınlar süni mayalanmaya və bu həkimin donor olmasına etiraz etməyib.

"Elə bilirdim zarafat edir"

Sevgilisinin qabırğasını yemək istədi

Hollivud ulduzu Armand Duqlas Hammerin keçmiş sevgilisi Pecie Lorenzo aktyor haqda təəccübləndirən açıqlamalar verib.

Axşam.az xəber verir ki, P.Lorenzo aktyorun onu yemək istədiyini bildirib:

"Münasibətimiz əsnasında "Qanını içmək istəyirəm" deyirdi. Elə bilirdim zarafat edir. Bir gün qabırğalarımı çıxartdırmağım üçün yalvardı. Səbəbini soruşanda isə qızadıb yeyəcəyini dedi".

Qeyd edək ki, A.Hammer barədə tez-tez təcavüz və şiddət iddiaları səslənir.

Tsunamidə öldüyü sanılırdı

Polis 16 il sonra dəlixanada ortaya çıxdı

İndoneziyada 2004-cü ildə baş verən tsunamidə itən və öldüyü düşünülən polis məmuru Abrip Asep, 16 ildən sonra bir dəlixanadan tapılıb. Asepin tsunami sonrası yaşadığı fəlakət nəticəsində psixoloji zədə aldığı bildirilir.

Qeyd edək ki, İndoneziyanın Sumatra adasının qərb sahilində, 2004-cü ildə baş verən 9.1 gücündə zəlzələdən sonra tsunami meydana gəlib. Ölkə tarixindəki ən çox can itkisinin yaşandığı 6-çı zəlzələ olaraq qeydlərə keçən təkanlarda, 230 mindən çox insan həyatını itirdi. Tsunaminin baş verdiyi gün itən və öldüyü düşünülən polis məmuru Abrip Asep, 16 ildən sonra ölkənin Açe bölgəsindəki xəstəxanada ortaya çıxıb. Asep zəlzələ günü - 26 dekabrda vəzifə başında olub. O, tsnumani zamanı ağır zədə alıb və ağılını itirib. Asepin ailə üzvlərindən biri yerli mediaya verdiyi açıqlamada bunları deyib: "İnana bilmədik. 16 ildir heç bir xəbər ala bilmədik. Öldüyünü düşündük. Həyatda olduğunu bilmirdik". Polis isə bildirir ki, ailəsi Asepin həyatda olduğunu öyrənən zaman böyük sevinc yaşayıblar.

Eni uzunluğundan böyükdür

93 milyon illik yaşı olan köpək balığı kəşf edilib

Okean və okean canlıları üzərində araşdırma aparan elm adamları, dinozavrların yaşadığı Təbaşir Dövrünə aid köpəkbalığı qalıqlarının tapıldığını bildiriblər.

Təxminən 93 milyon il əvvəl yaşadığı təxmin edilən köpək balıqlarından fərqli olaraq birhüceyrəli dəniz canlıları və meduza ilə bəslənən Aquilolamna adlı köpək balığı fosilinin Meksika sahillərində tapıldığı açıqlanıb.

NTV-nin "Science Magazine"-ə istinadən verdiyi xəbərə görə, nəşr olunan tədqiqatın aparıcı müəllifi, paleontoloq Romain Vulloya görə, "Aquilolamna" adı "mahiyyətcə təsirli bir stabilizator rolunu oynayan qartal köpək balığı" mənasını verir.

Fosil üzərində aparılan araşdırmalara görə, qanada bənzər üzgəclərə sahib olan köpək balığının qalıqlarında heç bir çatışmazlıq olmadığı deyilib.

Köpək balığının ölçülərinin 1.9 metr enində və 1.65 metr uzunluğunda olduğunu izah edərkən Vullo, araşdırmanın müəllifli olaraq heyrətini gizlədə bilməyib. Onun sözlərinə görə, balığın eni uzunluğundan qat-qat böyükdür. Aquilolamna adlanan köpək balığı növlərinin nəsli kəsildiyini bildirən elm adamları qeyd edib ki, bütün köpək balıqları kimi, Aquilolamna da qığırdaqlı bir skeletə sahibdir, ancaq sinəsindəki üzgəclər tamamilə bənzərsizdir.

Aytac Ali

Bred Pittin oğlu soyadından imtina edir

Hollivud ulduzları Ancelina Coli və Bred Pitt boşanan zaman qəyyumluğa götürdükləri oğulları Madoks aktyorun ona qarşı içkili vəziyyətdə zorakılıq tətbiq etdiyini bildirib. Aparılan araşdırmalardan sonra isə bu zorakılığı sübut edən heç bir dəlil tapılmayıb.

Axşam.az xarici KİV-ə istinadən bildirir ki, hazırda Ancelina və 6 uşağı "Coli-Pitt" soyadını daşıyır. Lakin iddialara görə, 19 yaşlı oğlu Madoks "Bred"in adını soyadından çıxartdıraraq, sadəcə "Coli" soyadını daşımaq istəyir.

"US Weekly"də yer alan məlumata əsasən, bəzi sənədlərdə Madoksun soyadı sadəcə "Bred"dir. Buna görə də o, soyadından imtina edəcək.